Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

20 SENTYABR 2019-cu il

№ 167 (4065)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# ƏRAZİ BÜTÖVLÜYÜ PRİNSİPİNƏ QARŞI ERMƏNİSTANIN YENİ TUTARSIZ OYUNU - «AZƏRBAYCANIN SƏRHƏDLƏRİ BEYNƏLXALQ TANINMAYIB»(?)

■ səh. 4 ■

Azərbaycan - KTMT münasibətləri məsələsinin Ermənistana təsirləri səngimir...

■ səh. 8 ■

İranın Azərbaycandakı səfirliyi Ermənistanın dövlətlərarası daha bir təxribatını ifşa etdi...

■ səh. 4 ■

Hələ çox erməni nazirlər vurulacaq - Paşinyan ilyarımlıq iflasın yükünü gedənlərin boynuna qoyacaq...

■ səh. 6 ■

Paşinyan İsraildə Azərbaycandan əvvəl səfirlik açmağı hədəfləyib...

■ səh. 7 ■

Güc strukturlarının rəhbərləri bir-bir onu tərk edir - Paşinyan prosesə ayrı don geyindirməyə çalışır...

■ səh. 7 ■

Şagirdlər arasında skolioz xəstəliyinin artımını necə kəsmək olar?

■ səh. 13 ■

Gənc qızların Bakıda yayılan daha bir pis adəti - ayaqlara muncuq, zəncir bağlayırlar... Çox pis izahlar verilir...

■ səh. 15 ■



■ səh. 9 ■

## Ermənistanın Qarabağ siyasəti tam iflasda - Putin ikitərəfli görüşdən və şam yeməyindən imtina edə bilər...



Ermənilərin barışmadığı KTMT-nin belaruslu yeni katibinin Bakı səfərindən Ermənistana mesajlar...

■ səh. 3 ■

Qondarma «Artsax»ın yersiz «xarici siyasət iddiaları» Ukrayna və Gürcüstanı Ermənistanla dövlətlərarası böhrana sala bilər...

■ səh. 5 ■



Qarabağ əlili olmaq heç kimə yol polisinin qanuni tələbini qanunsuz iqnor etməyə əsas vermir - xuliqanlığı dəstəkləyənlərə mesaj...

■ səh. 10 ■

■ səh. 3 ■

Azərbaycanlı girovlar Şahbazı və Dilqəmi dəyişməkdən imtina etmək üçün ermənilərin yeni təxribatı...



■ səh. 5 ■

Moskvada Ermənistana qarşı yeni proses - rus erməni kilsəsinin başçısını Qaregin-İrəvan bloku təyin edə bilməyəcək...



■ səh. 11 ■

Onkoloji xəstələrin dərmanla təchizatında yeni vəziyyət - büdcə vəsaitini necə artırmaq olar?



■ səh. 14 ■

380 binanın dam örtüyünün təmiri Bakı sakinləri üçün nə deməkdir...



■ səh. 11 ■

Tibbi fəaliyyətin ƏDV-dən azad olunması təklifi rəsmiləşsə...





### Prezident İlham Əliyev Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Bu barədə Prezidentin Mətbuat xidmətindən baki-xeber.com-a məlumat verilib.

### Səudiyyə ilə İran arasında gərginlik artır... Səfir Tehrana qarşı hərbi əməliyyatı istisna etmədi

**Səudiyyə Ərəbistanı İranın arxasında olduğu iddia edilən neft şirkəti Aramco-ya hücumlara cavab verəcəyini bəyan edib.**




Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanının Berlindəki səfiri şahzadə bin Farhan açıqlama verib.

Səfir İrana cavab vermək üçün bütün variantların masada olduğunu deyib.

"Hərbi əməliyyat olacaqmı" sualına cavab verən Farhan "Əlbəttə ki, bütün variantlar masadadır, amma yaxşıca araşdırılması lazımdır" deyib. Hücumun haradan edildiyinə dair araşdırma aparıldığına diqqət çəkən Farhan "hücuma görə məsuliyyəti üzərinə götürən kim olursa olsun, İran mütləq bunun arxasındadır" deyə vurğulayıb.

### İsmayıllıda "Kartof festivalı"nda zəhərlənmə, həm də bir sutkadan sonra?

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində (AQTA) İsmayıllı rayonunda baş verən zəhərlənmə ehtimalı ilə bağlı işçi qrupu yaradılıb.**




Agentlikdən "Trend"ə bildirilib ki, 7 nəfərin qida zəhərlənməsi ehtimalı ilə bağlı Səhiyyə Nazirliyindən daxil olan məlumat əsasında AQTA-nın mütəxəssislərindən ibarət işçi qrupu yaradılıb və hadisənin hansı səbəbdən baş verməsinin müəyyənləşdirilməsi istiqamətində araşdırmalara başlanıb.

Xatırladaq ki, bu gün İsmayıllının Təzəkənd kənd sakinləri - 1991-ci il təvəllüdlü Aytac Rəcəbova, 1974-cü il təvəllüdlü Natavan Nəcəfova, 1971-ci il təvəllüdlü Yeganə Məmmədova, 1977-ci il təvəllüdlü Bəxtirə Mayılova, Kürdmaşı kənd sakinləri - 1987-ci il təvəllüdlü Amil Quliyev, 1987-ci il təvəllüdlü Əlibaba Quliyev, Ucar rayon sakini, 1967-ci il təvəllüdlü Cavad Allahverdiyevin qəflətən halı pisləşib və onlar İsmayıllı rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar. Həmin şəxslərin guya İsmayıllıda keçirilən "Kartof festivalı"nda dönərdən zəhərlənmələri barədə məlumat yayılıb.

İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini Rövşən Ağayev Trend-ə özəl olaraq bildirib ki, festival zamanı heç bir zəhərlənmə faktı qeydə alınmayıb: "İsmayıllıda "Kartof festivalı" sentyabrın 18-də günorta saatlarında başa çatıb. Tədbirdən 1 sutkadan artıq bir vaxt keçib. Xəstəxanaya müraciət isə bu gün olub. Həkimlər də iddia edir ki, bu, zəhərlənmə deyil. Çünki zəhərlənmə dərhal özünü göstərir. Bu hadisə günvurmanın əlamətləridir. Həmin şəxslər sahədən gətiriliblər və onlara ilkin olaraq da günvurma diaqnozu qoyulub. Xəstəxanaya müraciət edən şəxslərə tibbi yardım göstərilib, səhhətləri normaldır və artıq evə buraxılıblar".

# Bakıda odlu silahlarla törədilən cinayətlər Avropadakından qat-qat aşağı səviyyədədir

**"The Economist Intelligence Unit" analitik mərkəzi ilə "The Economist" dərgisinin birgə hazırladığı hesabatda Bakı şəhəri "Təhlükəsiz Şəhərlər İndeksi 2019" (Safe Cities Index) reytinqinə görə dünyanın 60 ən təhlükəsiz şəhərləri sırasındadır.**




"Trend"in məlumatına görə, hesabatda Bakı şəhəri 56,4 balla qiymətləndirilərək, 49-cu yerdə qərarlaşıb. Reytinqdə göstərilən şəhərlər rəqəmsal təhlükəsizlik, infrastruktur təhlükəsizliyi, səhiyyə və şəxsi təhlükəsizlik olmaqla 4 göstərici üzrə 57 indikatora əsasən dəyərləndirilib.

Dünyada urbanizasiyanın səviyyəsi get-gedə yüksəlməkdədir. Araşdırmalara görə hazırda 56% təşkil edən urbanizasiyanın 2050-ci ilə qədər 68%-ə çatacağı gözlənilir. Şəhərləşmənin bu cür sürətli artımı özü ilə birgə iqtisadi və sosial risklər doğurur. Belə artımın qarşısının alınması və statistik göstəricilərin planlaşdırılmış səviyyədə dəyişməsi ölkələrin prioritet məsələlərindəndir. Respublikamızda aparılan islahatlar, müəyyən edilmiş yol xəritələrində də bu proseslərin nəzarət altında saxlanıldığını müşahidə edə bilərik. Azərbaycanda urbanizasiyanın səviyyəsi 53% təşkil edir. 2019-cu ilin yanvar ayının statistikasına əsasən Bakı şəhərinin əhalisinin sayı 2 milyon 277 min nəfər təşkil edir.

BMT-nin hesablamalarına görə, dünyada əhalisi 150 min nəfərdən çox olan 4416 şəhər var. Bunlardan yalnız 60 şəhər "Təhlükəsiz Şəhərlər İndeksi 2019"da (Safe Cities Index) qiymətləndirilib. Postsovet məkanından yalnız iki şəhər - Bakı və Moskva bu siyahıda qiymətləndirilmək səviyyəsinə çatıb. Bu da Bakının bir şəhər kimi dünyanın mühüm siyasi, iqtisadi, mədəni, tarixi və idman mərkəzlərindən biri olduğunu göstərir.

"Təhlükəsiz Şəhərlər İndeksi 2019" reytinqində Bakı şəhəri şəxsi təhlükəsizlik indikatoru üzrə 63,7 balla qiymətləndirilərək, 49-cu yerdə qərarlaşıb. Bakı şəhərində yerli əhalinin və ölkəyə gələn turistlərin şəxsi təhlükəsizliyi ölkənin daxili işlər orqanları tərəfindən yüksək səviyyədə təmin olunur. Daxili İşlər Nazirliyi tərəfindən vətəndaşların odlu silahın əldə edilməsinə qanunla ciddi nəzarət olunur. Bu səbəbdən də, Bakıda odlu silahlarla törədilən cinayətlər Avropanın digər şəhərlərindən qat-qat aşağı səviyyədədir.

Ölkəmizdə gender bərabərliyinin tamamilə təmin olunduğu dövlət o cümlədən özəl müəssisələrdə, ölkə idarəetməsində fəaliyyət göstərən xanımların saylarının kifayət qədər yüksək olması açıq-aşkar dünyanın bir çox ölkələrinə nümunə ola biləcək göstəricidir.

Son illərdə Bakı şəhərində keçirilən Baku-2015 Avropa Oyunları, 2017 İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları, UEFA Avropa Liqası, Baku-2019 Avropa Gənclər Olimpik Festivalı kimi beynəlxalq əhəmiyyətli idman yarışlarında təhlükəsizlik tam təmin olunub. Bakıda son bir neçə ildə heç bir terror aktının olmaması, yerli sakinlərin, o cümlədən şəhərimizdə səfərdə olan xarici vətəndaşların şəxsi təhlükəsizliyinə mane ola biləcək hər hansı təhlükənin olmaması Daxili İşlər orqanlarımızın fəaliyyətinin yüksək göstəricisidir.

# ABŞ Müdafiə Nazirliyi İranın neft infrastrukturuna hücum planını Ağ Evə təqdim etdi



**ABŞ Müdafiə Nazirliyinin İranın kritik neft infrastrukturuna hücum planını Ağ Evə təqdim etdiyi məlum olub.**

"Saudi Aramco" obyektlərinə hücumlarda İranı günahlandıran ABŞ-ın hədəfində nəhəng neft emalı zavodu Abadan və neft ixracat mərkəzi Harg Island da var.

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Səudiyyə Ərəbistanı İran istehsalı olduğunu iddia etdiyi raket hissələri və mühərriklərin görüntülərini paylaşıb.

ABŞ rəhbərliyi və adı açıqlanmayan mənbələrin sentyabrın 14-də "Saudi Aramco" obyektlərinə (Bukayk və əl Haris) hücumlara görə İranın məsuliyyət daşıdığına dair açıqlamalarından sonra ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) Tehrana qarşı bir neçə hərbi müdaxilə variantını Ağ Evə təqdim etdiyi ortaya çıxıb.

ABŞ mərkəzli NBC və "New York Times" qəzetlərinin xəbərlərinə görə, ABŞ müdafiə naziri Mark Esper və Baş Qərargah rəisi Cozef Danford Trampa İranın raket bazalarının vurulması və İranın neft infrastrukturuna qarşı hərbi və ya kiber əməliyyatları nəzərdə tutan variantlar təklif edib.

NBC İrana qarşı hərbi variantları nəzərdə tutan təklifin bazar ertəsi Ağ Evdə milli təhlükəsizlik toplantısı zamanı Prezident Trampa təqdim edildiyini, lakin Tramp "daha məhdud hərbi cavab" üzərində işlənməsini istədiyini iddia edib.

ABŞ hərbi planlaşdırıcılarının uzun siyahısında dünyanın ən böyük neft emalı zavodlarından biri olan İranın Abadan neft obyekti və İranın ən böyük neft ixracat mərkəzi Harg Island-ın da yer aldığı bildirilir.

Bu obyektlərin hər ikisinə və ya birinə edilən hücumun Tehranın neft istehsalı və satışına ciddi zərbə vuracağı iddia edilir.

### İran parlamenti ABŞ-a qarşı tətbiq edəcəyi sanksiyaları düşünür...

**İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komissiyası ABŞ əleyhinə bir sıra layihələri araşdırır. "Trend"in məlumatına görə, bunu İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komissiyasının sözçüsü Hüseyn Nəqəvi Hüseyni deyib.**

H.Nəqəvi Hüseyninin sözlərinə görə, bu layihələr 22-23 sentyabrda komissiyada araşdırılacaq.

Sözçü əlavə edib ki, layihələrdən biri ABŞ-ın bəzi rəsmilərinə qarşı sanksiyaların tətbiq edilməsi ilə əlaqədardır.

Komissiya sözçüsü sanksiyalarla ABŞ-a qarşı sərt addımların atılacağını deyib.

Qeyd edək ki, ABŞ 2018-ci il noyabr ayında İrana qarşı sanksiyalar tətbiq edib və sanksiyaların siyahısını bir neçə mərhələdə genişləndirib.

İran da buna adekvat olaraq avqust ayında ABŞ-ın Demokratiyanı Müdafiə Fondu və fondun direktoru Mark Duboviçi ABŞ-a qarşı sanksiyalar siyahısına daxil edib.

# Ermənilərin barışmadığı KTMT-nin belaruslu yeni katibinin Bakı səfərindən Ermənistana mesajlar...

**Xəbər verildiyi kimi, Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas Bakıda səfərdə olub. Stanislav Zas Prezident İlham Əliyevlə, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər ölkə rəsmiləri ilə görüşüb.**

## *"Bu, özlüyündə, Azərbaycana bir jestdir"*

Müstəqillik illərində Azərbaycan-Belarus əlaqələrinin təməlinin 1994-cü ildə dövlət başçıları Heydər Əliyev və Aleksandr Lukaşenko tərəfindən qoyulduğunu xatırladan R.Mehdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Belarus Prezidentinin qarşılıqlı səfərlərinin və görüşlərinin ikitərəfli münasibətlərimizin inkişafında xüsusi rol oynadığını vurğulayıb.

Söhbət zamanı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri ilə Stanislav Zas arasında bundan əvvəl beynəlxalq tədbirlərdə keçirilən görüşlər məmnunluqla xatırlanıb.

Məlumdur ki, Belarus KTMT-nin baş katibi vəzifəsinə Stanislav Zasın namizədliyini irəli sürüb. O bu təşkilata 2020-ci il yanvarın 1-dən rəhbərlik edəcək. Ermənistan uzun müddət onun KTMT sədri olmasına qarşı oldu. Erməni tərəfi bir ara bəyan edirdi ki, KTMT-nin keçmiş baş katibi general Yuri Xaçaturovun yerinə məhz Ermənistan təmsilçisi təyin olunmalıdır. Ancaq Ermənistanın bütün bu cəhdləri uğursuz oldu. Ən sonda Zasın KTMT-nin sədri olmasını rəsmi İrəvan təsdiq etməli oldu. Bütün bu deyilənlərlə yanaşı, S.Zasın KTMT sədri vəzifəsini icra etməzdən əvvəl Bakıya səfər etməsi Ermənistana hansısa bir mesaj sayıla bilərmi?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, S.Zasın indiki dönəmdə Bakıya səfər etməsi Ermənistana ciddi bir siqnaldır: "Məsələ ondadır ki, Belarus-Ermənistan münasibətlərini çox yaxın və dost münasibətlər hesab etmirəm. Çünki Belarus Prezidenti Lukaşenkonun da bir sıra ifadələrindən belə nəticə çıxarmaq olar. Bu, özlüyündə, Azərbaycana bir jestdir. Azərbaycanın maraqları ilə hesablaşmaqdır.

**Fikrət Sadıqov:** *"Gələn ildən KTMT-nin baş katibi olan Stanislav Zasın Bakıya gəlməsi və bir sıra görüşlər keçirməsi Ermənistana ciddi bir siqnaldır"*




Belarus Azərbaycana yaxın olan bir dövlət kimi çox istərdi ki, ölkəmiz nəinki ikitərəfli münasibətlər çərçivəsində, hətta KTMT çərçivəsində də əməkdaşlıq etsin. Əlbəttə, bu, Ermənistanı çox qıcıqlandırır. Hesab edirəm ki, bundan sonra da çox qıcıqlandıracaq. Digər tərəfdən, əminəm ki, Belarus, Qazaxıstan, hətta Rusiya Azərbaycanın bu təşkilatda olmasına çox maraqlıdırlar. Ancaq bu heç də o demək deyil ki, biz KTMT-yə üzv olmağa çalışırıq və bununla bağlı qarşımıza məqsəd qoymuşuq.

Biz, sadəcə olaraq, bir sıra dövlətlərlə münasibətlərimizi qururuq. O cümlədən, KTMT-də təmsil olunan ölkələrlə. Bütün bunlarla yanaşı, gələn ildən KTMT-nin baş katibi olan S.Zasın Bakıya gəlməsi və bir sıra görüşlər keçirməsi Ermənistana ciddi bir siqnaldır. Bu o deməkdir ki, Azərbaycana hər zaman xüsusi önəm verilir".

***Vidadi ORDAHALLI***

# Azərbaycanlı girovlar Şahbazı və Dilqəmi dəyişməkdən imtina etmək üçün ermənilərin yeni təxribatı...

**Azərbaycan tərəflərdə saxlanan əsir-girovların "hamının-hamıya" prinsipi əsasında azad olunması və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda, meyitlərin 3 gündən gec olmayaraq qaytarılmasını aidiyyəti beynəlxalq təşkilatların vasitəçiliyilə 2016-cı ilin aprel ayında Ermənistan Respublikasına təklif edib. Məlum olduğu kimi, bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından məlumat verilib.**



Bununla bağlı o da qeyd edilib Azərbaycan tərəfinin buna hazır olmadığı barədə deyilənlər əsassızdır: "Lakin kütləvi informasiya vasitələrində son günlər yayılan məlumatlarda bildirilir ki, Ermənistan tərəfi işğal altındakı Kəlbəcər rayonunda 2014-cü ildə girov götürülərək qanunsuz həbs cəzasına məhkum edilmiş Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan vətəndaşları olan erməni hərbçiləri - Azərbaycan ərazisində terror-təxribat əməllərinə görə həbs edilən Karen Kazaryan və cəbhənin Füzuli istiqamətində könüllü surətdə Azərbaycan Ordusuna təslim olan Araik Kazaryanla qarşılıqlı mübadilələrinə Azərbaycan tərəfinin hazır olmadığı barədə açıqlamalar verib".

O da qeyd edilir ki, əsir-girovların "hamının-hamıya" formatında azad olunması ilə bağlı Azərbaycan Respublikasının prinsipial mövqeyi dəfələrlə qarşı tərəfə çatdırılıb: "Dilqəm Əsgərov və Şahbaz Quliyevin Karen Kazaryan və Araik Kazaryanla mübadilə edilməsinə Azərbaycan tərəfinin hazır olması barədə Dövlət Komissiyası növbəti dəfə ədiyyəti beynəlxalq təşkilatlara 11 sentyabr 2019-cu il tarixdə rəsmi məlumat verib".

Görünən odur ki, Ermənistan hər vasitə ilə Şahbazla Dilqəmin dəyişdirilməsindən yayınmağa çalışır. Bir müddət əvvəl Ermənistan XİN rəsmisi Anna Nağdalyan sözügedən şəxslərin dəyişdirilməsinin mümkünsüz olduğunu demişdi. Maraqlıdır, ermənilər Şahbazla Dilqəmi dəyişməkdən niyə hər dəfə yan qaçırlar?

Məsələyə münasibət bildirən Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidovun sözlərinə görə, ermənilər bundan öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar: "Əvvəla qeyd edim ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası növbəti dəfə bəyan etdi ki, Azərbaycan əsir-girovların "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsinə sadiqdir. Budəfəki bəyanat bir qədər fərqli idi. Fərq ondan ibarət idi ki, bəyanatda konkret adlar çəkildi. Dilqəm Əsgərovla Şahbaz Quliyevi Karen Kazaryan və Araik Kazaryanla dəyişdirməyə Azərbaycanın hazır olduğu qeyd edildi. Rəsmi Bakı, zatən, ötən ilin noyabrında əsir və girovların "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsi barədə açıqlama yaymışdı. Başda ATƏT-in Minsk Qrupu olmaqla, beynəlxalq təşkilatlar vasitəsilə Ermənistan tərəfinə bu barədə müraciət etmişdi. Təəssüflər olsun ki, Ermənistan tərəfi bu humanist addımdan sonra iyunun 28-də ilkin dəyişdirilmə oldu. Elvin İbrahimovla Zaven Karapetyan dəyişdirildi. Ondan

**Əhməd Şahidov:** *"Ermənistan tərəfi məqsədyönlü şəkildə Şahbazla Dilqəmi vermək istəmir və hər vasitə ilə işi pozmağa çalışır"*

## *"Qarşı tərəf bundan öz siyasi məqsədləri üçün istifadə etməyə çalışır"*

ma adekvat cavab verməyib. Ermənistan tərəfi məqsədyönlü şəkildə Şahbazla Dilqəmi vermək istəmir və hər vasitə ilə işi pozmağa çalışır. Lakin ötən müddət ərzində Azərbaycan dövləti, vətəndaş cəmiyyəti olaraq bizlər bütün mümkün platformalarda bu məsələni davamlı olaraq gündəmdə saxlayırdıq. Rusiya xarici işlər nazirinin bu ilin aprelində Ermənistana çağırışı oldu. Təklif olundu ki, rəsmi Bakının irəli sürdüyü "hamının-hamıya" prinsipinə Ermənistan razı olsun. Bundan sonra sözügedən məsələ yenə passiv fazaya daxil oldu".

Ə.Şahidovun fikrincə, yalnız avqustun 12-də Ermənistan ordusunun əsgəri Araik Kazaryan könüllü surətdə təmas xəttini keçib Azərbaycan tərəfinə təslim olandan sonra bu məsələ aktuallaşdı: "Çünki bu, Ermənistanda ciddi müzakirələrə səbəb oldu. Ondan sonra Ermənistan mətbuatı, cəmiyyəti bu məsələni davamlı şəkildə gündəmdə saxladı. Öz ölkələrinin müvafiq qurumlarına sorğular, suallar göndərməyə başladılar. Lakin Ermənistan hökumətinin ayrı-ayrı üzvləri, bu ölkənin müxtəlif dövlət qurumları bir-birinə tamamilə zidd olan açıqlamalar verməyə başladılar. Bu da Ermənistan dövləti daxilində mərkəzləşdirilmiş idarəetmənin olmamasını göstərmiş oldu. Çünki Ermənistanın müdafiə naziri fərqli, xarici işlər naziri isə tamam ayrı fikirlər səsləndirirdi. Həmin qurumların mətbuat katibləri də bir-birinə zidd fikirlər səsləndiriblər. Bir neçə gün bundan əvvəl Ermənistan Müdafiə Nazirliyi rəsmisi bəyan etdi ki, Azərbaycanın bu işə hazır olması barədə, ümumiyyətlə, onlarda məlumat yoxdur. Bundan sonra rəsmi Bakı növbəti dəfə qarşı tərəfə müraciət etməli oldu. Bu dəfə konkret adlar çəkməklə əsir və girovların dəyişdirilməsinə hazır olduğunu bəyan etdi. Biz bu rəsmi mövqeyi gələn həftədən etibarən Varşavada keçiriləcək ATƏT-in zirvə toplantısında gündəmə gətirəcəyik".

***Vidadi ORDAHALLI***

**Qondarma "DQR"in "Xarici İşlər Nazirliyi" Gürcüstan və Ukraynanın Qarabağda keçirilən saxta "bələdiyyə seçkiləri"nin nəticələrini tanımamaqla bağlı ifadə etdikləri mövqedən dərin narahatlıq keçirdiyini bildirib. Onların bəyanatında bildirilir ki, Ukrayna Krım, Gürcüstan isə Osetiya və Abxaziya problemlərindən əziyyət çəkdikləri üçün belə mövqe sərgiləyiblər.**

# Ərazi bütövlüyü prinsipinə qarşı Ermənistanın yeni tutarsız oyunu - "Azərbaycanın sərhədləri beynəlxalq tanınmayıb" (?)

## *Elşən Mustafayev: "Ermənistandan başqa bizim heç bir qonşu dövlətlə sərhəd problemimiz yoxdur"*



Bəyanatda ermənilər iddia edirlər ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri yoxdur: "Gürcüstan və Ukrayna bəyanatlarında söhbəti Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədləri kontekstinə yönəldirlər. Bu xüsusda qeyd etmək istərdik ki, Azərbaycan Rusiya ilə öz arasında olan sərhəddən başqa, beynəlxalq səviyyədə tanınan hər hansı sərhədlərə malik deyil. Gürcüstanla Azərbaycan arasındakı sərhəd məsələsi hələ tam həllini tapmayıb. Digər ölkələrlə də sərhəd məsələsində belə ziddiyyət var. Hətta bəzi qonşularla delimitasiya və demarkasiya prosesi heç aparılmayıb".

Qondarma qurumun "diplomatiyası" adından yayılan bəyanatda bildirilir ki, Gürcüstan Azərbaycana bu məsələdə dəstək verməklə Bakı ilə öz arasında olan narazılıqları malalamağa çalışır: "Bizim hesabımıza belə addımlar atıb nəyəsə ümid eləməsin".

Göründüyü kimi, erməni təbliğat maşını indi də Azərbaycanın qonşuları ilə olan sərhədlərinin guya beynəlxalq səviyyədə tanınmadığını gündəmə gətirməklə ərazi bütövlüyümüzü başqa vasitələrlə şübhə altına almağa çalışır. Bu sərsəm iddiaları ortaya atmaqla ermənilər nəyə nail olmaq istəyirlər?

Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin bu narahatlığı başadüşüləndir: "Çünki əvvəlki illərdən fərqli olaraq, bu dəfə Gürcüstan və Ukrayna separatçı qurumun keçirdiyi qondarma "seçkilər"ə dərhal reaksiya verərək, onu tanımadığını bəyan etdi. Bu amil, təbii ki, erməniləri narahat etməyə bilməzdi. Azərbaycanın dövlət sərhədləri bütün beynəlxalq konvensiyalar və qurumlar tərəfindən tanınır. Hətta ermənilərin işğal etdiyi ərazilər belə, birmənalı olaraq, Azərbaycanın ərazi vahidi kimi qeyd edilir. Yəni onlar nə qədər çalışsalar da, bunu aradan qaldıra bilməyiblər.

Azərbaycan Respublikasının sərhədinin uzunluğu 3360 km, o cümlədən, quru sərhədlərinin uzunluğu 2648 km-dir və su sərhədlərinin uzunluğu 816 km-dir. Azərbaycan Respublikası şimalda Rusiya Federasiyası, şimal-qərbdə Gürcüstan, qərbdə və cənub-qərbdə Ermənistan, qərbdə Türkiyə, cənubda isə İranla həmsərhəddir. Xəzər dənizi vasitəsilə isə biz Türkmənistan və Qazaxıstanla ümumi sərhədlərə malikik. Dövlət sərhədləri toxunulmazdır. Sərhədlərin təhlükəsizliyini təmin etmək, bununla da öz suverenliyini qorumaq üçün hər bir dövlətin onun sərhədini pozmuş dövlətə qarşı silahlı qüvvələr tətbiq etmək də daxil olmaqla, istənilən vasitədən istifadə etmək hüququ var. Dövlət sərhədi rejimi müvafiq dövlətin daxili qanunvericiliyi, habelə onun həmsərhəd ölkələrlə razılaşmaları əsasında müəyyən edilir. 1975-ci il Avropada

*"BMT, Avropa Birliyi, NATO bizim sərhədlərimizi tanımaqla yanaşı, həm də ərazi bütövlüyümüzü dəstəkləyir"*

Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun Aktında deyilir: "İştirakçı dövlətlər bir-birinin, habelə Avropadakı bütün dövlətlərin sərhədlərinin toxunulmazlığını nəzərə alır və buna görə də onlar hazırda və gələcəkdə həmin sərhədlərə qarşı hər hansı qəsddən çəkinəcəklər".

Tarixi haqqımız olan müstəqilliyimizi qazandıqdan, 1991-ci ilin 18 oktyabrında "Müstəqillik haqqında Konstitusiya Aktı"nı qəbul etdikdən sonra milli dövlət quruculuğunun bərpası işlərinə başlandı. Müstəqil dövlətin əsas dayağı olan Silahlı Qüvvələrin, o cümlədən, Sərhəd Qoşunlarının yaradılması müstəqil dövlət quruculuğunun əsas tərkib hissələrindən idi. 1991-ci ilin dekabr ayının 9-da Azərbaycan Respublikasının Milli Şurası "Azərbaycan Respublikasının Dövlət sərhədi haqqında" Qanun qəbul etdi".

Ekspertin sözlərinə görə, hazırda Azərbaycanın dövlət sərhədi bütün qonşular tərəfindən qəbul edilir və tanınır: "Ermənistandan başqa bizim heç bir qonşu dövlətlə sərhəd problemimiz yoxdur. BMT, Avropa Birliyi, NATO bizim sərhədlərimizi tanımaqla yanaşı, həm də ərazi bütövlüyümüzü dəstəkləyir. Ermənilərin rəqabət imkanları qurtardığı üçün, bizimlə bu üsulla mübarizəyə keçiblər. Gürcüstanla bizim aramızda isə sərhəddə müəyyən dəqiqləşdirmələrin aparılması tam normaldır. Çünki analoji addımlar istənilən ölkədə aparılır".

***Məhəmmədəli QƏRİBLİ***

**İran qondarma "Dağlıq Qarabağ Respublikası" komandasının Tehranda keçirilən ermənilərin idman olimpiadasındakı iştirakını təkzib edir. Bu barədə məlumat İranın Azərbaycandakı səfirliyinin bəyanatında əks olunub. Bəyanatda bildirilir ki, İranın Bakıdakı səfirliyi İslam Respublikasının rəsmi idman qurumlarından əldə etdiyi məlumata görə, qondarma "respublika"nın komandasının olimpiadada iştirak etməsinə heç bir icazə verilməyib.**

# İranın Azərbaycandakı səfirliyi Ermənistanın dövlətlərarası daha bir təxribatını ifşa etdi...

## *Xəzər Teyyublu: "Belə bir klubun təşkil etdiyi oyunlar, bu istiqamətdə apardığı təbliğatdan yaxşı nəsə gözləmək olmaz"*




İran səfirliyi qeyd edir ki, bu olimpiadanın heç bir siyasi aspekti yoxdur və ondan siyasi motivlər üçün istifadə etməyə icazə verilməyəcək.

İran səfirliyinin bəyanatında qeyd olunur ki, İran İslam Respublikası Azərbaycan Respublikasının müstəqillik əldə etdiyi ilk günlərdən və çətin dövrlərdə həmişə qardaş Azərbaycan xalqı və dövlətinin yanında olub.

Bəyanata əsasən, İran Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayır və bu siyasətində heç bir dəyişiklik etməyəcəyini qeyd edir: "İran və Azərbaycanın dostluğu əbədidir və qeyri-real xəbərlər, şayiələr iki dost və qardaş dövlətin əlaqələrinə xələl yetirə bilməz".

Qeyd edək ki, Tehranda 15 sentyabrda start götürən 51-ci erməni olimpiadasında qondarma "DQR" komandasının iştirak etməsi ilə bağlı KİV-də məlumat yayılıb. Bununla Ermənistan daha bir təxribata imza atmış olub. Xüsusilə İranın indiki gərgin vaxtında onun yaxın qonşuları ilə arasını qızışdırmağa cəhd edib. İran bununla bağlı hansı addımları atmalıdır?

Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu qəzetimizə bildirdi ki, İran bunlardan bir nəticə çıxarmalıdır: "Məlumat yayılanda İranın Azərbaycandakı səfirliyi belə bir olimpiadanın keçirildiyini təsdiqlədi və bunu ölkəsindəki milli azlıqların hüququ kimi dəyərləndirdi. Ancaq maraqlıdır ki, ilk açıqlamada səfirlik qondarma "DQR" komandası ilə bağlı nəsə demədi. Hətta İranın səfiri rəsmilərin tədbirdə iştirakını normal hal kimi dəyərləndirmişdi. Çünki onun tərkibində yalnız ermənilər yaşamır ki. Hətta etnik azlıq yox, etnik çoxluq kimi soydaşlarımızın da hisslərini nəzərə almalıdırlar. Tədbirin təşkilatçısı olan

*"Bunun ən başlıca ziyanı elə İranın özünə dəyir"*

Üstündən bir neçə gün keçəndən sonra səfirlik bu bəyanatı verdi. Hər halda, "DQR" komandasının orada iştirakının mümkünsüzlüyünü deməklə obyektivliyi qoruyublar. Düşünürəm ki, İran, ümumiyyətlə, belə bir oyunları keçirməməli idi. "Ararat" klubu Paşinyan İrana səfər edəndə ciddi təxribata əl atdı. Görüşün keçirildiyi zalda lazımsız plakat yapışdırdı, Paşinyan da gedib onun önündə foto çəkdirdi. Belə bir klubun təşkil etdiyi oyunlar, bu istiqamətdə apardığı təbliğatdan yaxşı nəsə gözləmək olmaz. Bunun ən başlıca ziyanı elə İranın özünə dəyir. Çünki bizim cəmiyyətdə yayılan ilk məlumata kəskin reaksiyalar verildi.

Hətta iddia olundu ki, bir islam ölkəsi xüsusilə də Məhərrəm ayında analoji addımı atmamalı idi. İndi məlumat təkzib edilir. Ancaq çox adamların beynində həmin xəbər iz buraxdı. Yaxşı olardı ki, elə bu təxribata görə İran Ermənistandan rəsmi izahat tələb edəydi. Belə beynəlxalq təxribatın olması həm də İrana əsas verirdi ki, həmin olimpiadanı tam dayandırsın. İran bütün bu gedişatları nəzərə alıb, Ermənistanla bir qədər sərt rəftara üstünlük verməlidir. İran deyir ki, oyunlar siyasi mahiyyət daşımır. Amma ermənilər bir təxribatları ilə ona tam siyasi çalar verdilər"

***Məhəmmədəli QƏRİBLİ***

**Qarabağda separatçı rejimin qondarma "Xarici İşlər Nazirliyi" Gürcüstan və Ukraynanı insan hüquq və azadlıqlarına hörmətə əsaslanan dəyərlər sisteminə riayət etməyə çağırıb. "DQR"in qondarma qurumu Gürcüstan və Ukraynanın xarici işlər orqanlarının ölkədəki yerli seçkilərə reaksiyasını şərh edib.**

# Qondarma "Artsax"ın yersiz "xarici siyasət iddiaları" Ukrayna və Gürcüstanı Ermənistanla dövlətlərarası böhrana sala bilər...

***Məhəmməd Əsədullazadə:** "Bu, erməni separatçılarının növbəti həyasızlığıdır"*



Separatçı qurumun bəyanatında qeyd olunur ki, sentyabrın 8-də keçirilən yerli "hakimiyyət orqanları"na "seçkilər" guya "respublika"da "demokratik təsisatlar"ın ardıcıl inkişafı və möhkəmlənməsi prosesində "hakimiyyətin" və cəmiyyətin növbəti uğuru idi.

Şərhdə o da qeyd olunur ki, Azərbaycanın ötən "seçkilər"ə əsəbi reaksiya verməsi əvvəlcədən gözlənilən idi və guya "ölkə vətəndaşlarının" təməl hüquqlarının təkzib edilməsinin, eyni zamanda, ümumilikdə, demokratik dəyərlərin rədd edilməsinin növbəti təzahürü oldu: "Özlərini Azərbaycanın antidemokratik rejimi ilə əlaqələndirən Gürcüstan və Ukrayna xarici işlər nazirliklərinin açıqlamaları çaşqınlıq yaradırdı. Bu cür açıqlamalar Gürcüstanın və Ukraynanın demokratik dəyərlərə sadiq qalmasına zidd olmaqla yanaşı, həm də "DQR"in daxili işlərinə qarışmaq, xalqların bərabər hüquqları və dövlətlərin suveren bərabərliyi prinsiplərini pozmaqdadır".

Separatçı rejimin "XİN"i Gürcüstan və Ukrayna hakimiyyətini demokratik prinsiplərə və insan hüquq və azadlıqlarına hörmətə əsaslanan dəyər sistemə sadiq qalmağa və "ölkə vətəndaşlarının" fundamental beynəlxalq sənədlərdə təsdiqlənmiş hüquqi əsaslardan istifadə etmələri ilə bağlı bəyanatlardan çəkinməyə çağırıb.

Görünən odur ki, "Artsax" "bələdiyyə seçkilərinə" görə Gürcüstanı və Ukraynanı hədələyib. Onların bu addımı regional aqressiyanın yeni təzahürü sayıla bilərmi?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, gör separatçılar necə azğınlaşıblar ki, Ukrayna və Gürcüstanı hədələməkdən belə çəkinmirlər: "Bu, erməni separatçılarının növbəti həyasızlığıdır. Hesab edirəm ki, bu cür addımlar Ermənistanın Gürcüstan və Ukrayna ilə münasibətlərinə təsirsiz ötüşməyəcək. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın yaratdığı qondarma rejimdə "bələdiyyə seçkilərinin" keçirilməsi qərarına Gürcüstan və Ukraynanın etiraz etməsi normal yanaşmadır. Çünki hər iki respublika işğala və separatizmə məruz qalıb. Qondarma rejimin bu barədə iki ölkəyə qarşı bəyanatı hüquqi cəhətdən absurddur. Heç Ermənistan belə separatçı qurumun "müstəqilliyini" tanımır. Ərazilər beynəlxaq hüquq baxımından Azərbaycanın ərazisidir və burada keçirilən seçkilər təxribatdır.

*"Hesab edirəm ki, bu cür addımlar Ermənistanın Gürcüstan və Ukrayna ilə münasibətlərinə təsirsiz ötüşməyəcək"*

Azərbaycan daim belə bir qanunsuz seçkilərə qarşıdır və beynəlxalq qurumların buna qarşı kəskin etiraz etməsinə çalışmalıdır. Hesab edirəm ki, Xankəndidəki separatçılar Ukrayna və Gürcüstanda olan separatçı ocaqlarla əməkdaşlıq formatı istiqamətində işlər apardığından, Kiyev və Tiflisin buna imkan verməməsi bunlarda narahatlıq doğurur. Rəsmi Bakı belə bir separatizmə daim qarşıdır. O üzdən, Gürcüstan və Ukraynanın ərazi bütövlüyünü tanıyır".

***Vidadi ORDAHALLI***

**Ermənistana qarşı Rusiyada münasibət kəskin şəkildə soyumağa başlayıb. Əvvəllər bu soyuqluq daha çox Rusiya cəmiyyəti tərəfindən sərgilənsə də, indi rəsmi Moskva Ermənistandan üz döndərməkdədir. Hazırda Rusiya hökumətinin Paşinyan rejimi ilə soyuq davranışları da diqqətdən yayınmır.**

# Moskvada Ermənistana qarşı yeni proses : rus erməni kilsəsinin başçısını Qaregin-İrəvan bloku təyin edə bilməyəcək...

***Faiq Ələkbərli:** "Bu birbaşa qərbyönümlü siyasət yürüdən Paşinyan rejiminin Kreml tərəfindən cəzalandırılması anlamına gəlir"*



Bu münasibət isə erməni kilsəsinin parçalanması ehtimalını gerçəkləşdirmək üzrədir. Rusiyada Ermənistana qarşı başlanan yeni proses nəticəsində erməni kilsəsini parçalanma gözləyir.

Məlumat üçün bildirək ki, Rusiyadakı erməni kilsəsinin başçısı Yezras bütün ermənilərin katolikosu İkinci Qareginin qardaşıdır. Yeri gəlmişkən, Rusiyada bir "Yeni Naxçıvan Erməni Kilsəsi" də var ki, Yezras onun da başçısı sayılır.

Onu da vurğulayaq ki, Paşinyan hələ hakimiyyətə gələnə qədər İkinci Qaregindən qurtulmağın vacib olduğu barədə açıq danışırdı. Bildiyimiz kimi, İrəvanda sırf buna görə bir neçə etiraz yürüşünü də təşkil edib və etirazçılar Qaregeni korrupsiya, satqınlıq kimi əməllərdə ittiham edərək, onun ofisinə hücumlar da təşkil ediblər. Bildiyimiz kimi, erməni keşişləri arasında kifayət qədər Paşinyana dəstək göstərməyənlər var, hətta Paşinyanın, ümumiyyətlə, kilsədən dəstək ala bilmədiyi qeyd edilir. Maraqlıdır ki, indiki durumda Rusiyadakı erməni kilsəsində ayırıcı baxışlar güclənməkdədir. Bu işdə Kremlin rolu var, çünki Moskva Rusiyadakı erməni keşişlərinin İrəvandan təyin olunmasının qarşısını almağa çalışır. Kreml bunu Paşinyana daha bir təzyiq aləti kimi istifadə etməyi düşünə bilər. Əlbəttə, bu, real görünən bir məsələ kimi diqqəti cəlb edir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, rəsmi Moskva Paşinyanın yürütdüyü qərbyönümlü siyasətə görə, gah Avropaya, gah ABŞ-a can atdığı, meyl göstərdiyi üçün onu cəzalandırmaq istəyir. "Bilirsiniz ki, Paşinyan hakimiyyətə gəldikdən sonra onun yürütdüyü siyasət Rusiyapərəst siyasət olmadı. O daha çox Qərbə meyl etməyə, onların çaldığı havaya oynamağa başladı. Bu da sözsüz ki, Kremlin Paşinyan rejiminə münasibətinin kəskin şəkil almasına səbəb oldu. Hesab edirəm ki, rəsmi Moskva Ermənistanı cəzalandırmaq məqsədilə bir sıra addımlar atacaq və o addımlardan biri də, birmənalı olaraq, Rusiyadakı erməni kilsələri ilə bağlı olacaq. Məlumdur ki, indiyə qədər Rusiyadakı erməni kilsələrinin rəhbərləri Qaregin tərəfindən təyin edilirdi. Bu özünü Rusiyadakı erməni kilsəsinin indiki başçısının təyin edilməsi məsələsində də göstərib. Bildiyimiz kimi, bu kilsəyə bütün ermənilərin katolikosu İkinci Qareginin qardaşı rəhbərlik edir. Onun rəhbərliyi də sözsüz ki, Rusiyanın xoşuna gəlmir. Ümumiyyətlə, son illər erməni kilsəsinin özündə açıq parçalanma meylləri özünü göstərir. Rusiya hökuməti çalışır ki, bu ölkədəki erməni kilsələri ilə Qaregenin əlaqələri tamamilə kəsilsin. Buna görə də Kreml bundan sonra imkan verməyəcək ki, Rusiyadakı erməni kilsələrinin rəhbərləri Ermənistan tərəfindən təyin edilsin. Bu birbaşa qərbyönümlü siyasət yürüdən Paşinyan rejiminin Kreml tərəfindən cəzalandırılması anlamına gəlir. Rusiya istəmir ki, Rusiyadakı erməni kilsəsi müstəqil olsun və o bu kilsələrin müstəqilliyini əlindən almaq niyyətindədir. Çünki müstəqil olan erməni kilsəsi Rusiya üçün böyük təhlükəyə çevrilib" - deyə F.Ələkbərli qeyd etdi.

*"Kreml bundan sonra imkan verməyəcək ki, Rusiyadakı erməni kilsələrinin rəhbərləri Ermənistan tərəfindən təyin edilsin"*

***İradə SARIYEVA***

# Hələ çox erməni nazirlər vurulacaq - Paşinyan ilyarımlıq iflasın yükünü gedənlərin boynuna qoyacaq...

**Ermənistanda müşahidə olunan hakimiyyət böhranının davam edəcəyi və yeni istefalar nəticəsində iqtidarın fəaliyyətinin iflic vəziyyətinə düşəcəyi barədə elə erməni mediasında çoxsaylı maraqlı məlumatlar yayılmaqdadır. Bir neçə erməni mətbu orqanının yaydığı informasiyalardan belə bəlli olur ki, yaxın günlərdə ölkəni daha səs-küylü istefalar gözləyir.**

Məsələn, "Joxovurd" qəzeti yazır ki, Ermənistanda bundan sonra da yüksək vəzifəli şəxslərin istefası davam edəcək.

Qəzetin yazdıqlarından belə bəlli olur ki, baş nazirin müavini Mqer Qriqoryan, xarici işlər naziri Zöhrab Mnatsakanyan və müdafiə naziri David Tonoyan da öz postlarını tərk etməyə hazırlaşır. Qeyd olunur ki, "Amulsar" qızıl mədəninin işləyəcəyini söyləyən fövqəladə hallar naziri Feliks Çolakyan və ətraf mühit naziri Erik Qriqoryan da nazir portfellərini öz istəkləri ilə təhvil verəcəklər. Bunlardan başqa, istefaya gedə biləcək nazir namizədləri arasında Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi və Dövlət Gəlirlər Komitəsinin rəhbərləri də var. Qəzet yazır ki, Ermənistanın baş naziri Nikol Paşinyan ABŞ-dan qayıtdıqdan sonra sosial blokun nazirlərini vəzifələrindən azad etmək niyyətindədir. Söhbət səhiyyə naziri Arsen Torosyan, eləcə də əmək və sosial işlər naziri Zarui Batoyandan gedir. Qeyd olunur ki, Ermənistan Milli Məclisində də dəyişikliklər gözlənir. Vəziyyətin vitse-spiker Lena Nazaryan tərəfindən ağırlaşdırıldığı iddia olunur. "Joxovurd" "Mənim addımım" fraksiyasından ayrılan Mikael Zolyanın parlamentdə yeni qrupun üzvü olacağını da proqnozlaşdırır. Yaxın gələcəkdə bu yeni qrupa başqa kimlərin qoşulacağı bəlli olacaq. Xatırladaq ki, bundan əvvəl Milli Təhlükəsizlik Şurasının rəhbəri Artur Vanetsyan və Ermənistan polisinin rəhbəri Valeri Osipyan istefa vermişdi.

Ermənistanın "Qraparak" nəşri də yazır ki, yeni istefalara hakimiyyət daxilində ciddi hazırlıq gedir: "İnqilabın ikinci mərhələsi"nin başlamasını elan edən Paşinyan "uğursuz" iş görən və onun reytinqinə təsir edən bir neçə dövlət rəsmisini vəzifəsindən azad etməyi qərara alıb. Müdafiə naziri David Tonoyan, ətraf mühit naziri Erik Qriqoryan, xarici işlər naziri Zohrab Mnatsakanyan, fövqəladə hallar naziri Feliks Çolakyan və İstintaq Komitəsinin sədri Ayk Qriqoryanın adı (onun əmri artıq növbəti həftə olacaq) bu siyahıdadır. Feliks Çolakyan Artur Vanetsyanla olan yaxınlığa görə azad olunacaq, Ermənistan İstintaq Komitəsinin sədri isə cinayət işlərinin məhkəməsini guya ictimaiyyətə açıq şəkildə çatdırmadığı üçün işindən ayrılacaq". Bundan başqa, erməni mediasının yazdıqlarından o da bəlli olur ki, Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın da vəzifədən kənarlaşdırılması diqqət mərkəzindədir. Xatırladaq ki, hakim "Mənim addımım"ın parlament fraksiyası Hrayr Tovmasyanın səlahiyyətlərinə xitam vermək istiqamətində prosesə başlayıb. Buna səbəb olaraq Tovmasyanın vəzifəsində pozuntulara yol verməsi və səlahiyyətlərindən sui-istifadə etməsi göstərilir. Bu məsələ ilə bağlı son qərar Konstitusiya Məhkəməsi tərəfindən veriləcək. Qeyd edək ki, Konstitusiya Məhkəməsi Ermənistanın hazırda həbsdə olan keçmiş prezidenti Robert Köçəryanın sərbəst buraxılması barədə qərar qəbul etmişdi. "Qraparak" nəşri bildirir ki, bütün istefalar içində ən maraqlı olanlardan biri müdafiə naziri David Tonoyanla bağlıdır. Bu şəxs Paşinyan tərəfindən müdafiə naziri vəzifəsinə gətirilsə də, Serj Sarksiyanın kadrlarından sayılır. Elə buna görə də, Paşinyan onu vəzifədən kənarlaşdırmaqda həmişə maraqlı olub. Hökumətdəki mənbəyə istinad edən "Qraparak" yazır ki, Paşinyan bu vəzifəyə dostu Vaqe Kazaryanı təyin edəcək. Müdafiə naziri və digər güc strukturları rəhbərlərinin istefa səbəblərini şərh edən ehtiyatda olan polkovnik, hərbçi ekspert Şair Ramaldanov isə bildirir ki, müxalif qüvvələrin Ermənistan hökumətinə kifayət qədər təsiri var. Onun sözlərinə görə, həm müxalif, həm də hökumətdəki bəzi qüvvələr Nikol Paşinyanın daxili və xarici siyasətinin əleyhinədir: "Nikol Paşinyanın hakimiyyətə gəldiyi zaman verdiyi vədlər reallaşmayıb. Ermənistanın vəzifəli şəxsləri də müəyyən şəkildə buna öz narazılığını bildirir. Ermənistanda vəzifəli şəxslərin ard-arda istefası onu göstərir ki, Paşinyan komandasını formalaşdıra bilməyib". Ş.Ramaldanov əlavə edib ki, Ermənistan hökumətində komanda formalaşmamış vəzifəli şəxslər Paşinyanı tərk edir. Ekspert istefalara səbəb olan digər amilə də diqqət çəkib: "İstefaların digər səbəbi Ermənistanda olan iqtisadi-siyasi böhran, sosial gərginliklə bağlıdır. Düşünürəm ki, istefalar həm də "Qarabağ klanı"nın təsiri ilə əlaqədardır. Ermənistanın geosiyasi arenada nüfuzu da getdikcə aşağı düşür. Eyni zamanda, İrəvanın müttəfiqləri ilə gərginliyi hökumət daxilində problem yaradıb. Hesab edirəm ki, Ermənistanda yüksək vəzifəli şəxslərin istefası davam edəcək".



Digər ekspertlər də bildirir ki, əhali arasında etimadı doğrultmayan Paşinyan bir müddət də cəmiyyətin başını istefalarla qatmaq istəyir. Çünki baş nazir iqtisadi sahədə hər hansı bir konkret nəticə əldə edə bilmədiyindən müxtəlif yollara əl atır. Bunlar fonunda Paşinyanın 2050-ci ilədək Ermənistan əhalisini beş milyon nəfərə çatdırmaq, respublikada yoxsulluğun kökünü kəsmək, ÜDM-i yaxın 30 ildə 15 qat artırmaq barədə planları da sadəcə istehza doğurur. Görünən budur ki, Paşinyanın 2050-ci il üçün proqnozlaşdırdığı iqtisadi və digər göstəricilərə çatmaq planlarının icrası mümkün deyil. Ölkə əhalisinin, xarici investisiyaların azalması iqtisadiyyatın artım imkanlarını məhdudlaşdırır. İndilikdə Ermənistan iqtisadiyyatının zəifləməsi xarici investorların bu ölkəyə marağının azalması ilə də bağlıdır. Paşinyanın hakimiyyətdə olduğu dövr ərzində bir sıra böyük investorlar, xüsusən də Rusiya kapitalı Ermənistanı tərk edib. Onları heç bir ciddi xarici investor əvəz etməyib. Son zamanlar İrəvan tez-tez xaricdən kredit götürür, bu isə onsuz da böyük olan borc yükünü artırır. Hazırda ölkənin xarici borcu yeddi milyard dollardır. Bu rəqəm daim artmaqdadır.

Ermənistan statistik mənbələrinin məlumatına əsasən, xarici borc ölkə ÜDM-nin 60 faizini təşkil edir. Ermənistanın ticarət balansında son illərdə müşahidə olunan sabit mənfi saldo ölkə iqtisadiyyatını formalaşdıran daha bir ciddi amildir. Ölkə iqtisadiyyatında idxalın həcmi ixracın göstəricilərindən əhəmiyyətli dərəcədə çoxdur. Belə vəziyyət Ermənistanın durumunu ağırlaşdırır və bunlara görə Paşinyan məsuliyyət daşıyır. Amma indi o, bu istiqamətdə diqqəti yayındırmaq üçün məmurlarını istefaya göndərir. Digər məmurların da istefaya getməsi isə Paşinyanın özünün durumunu ağırlaşdırır.

***Tahir TAĞIYEV***

# Güc strukturlarının rəhbərləri bir-bir onu tərk edir - Paşinyan prosesə ayrı don geyindirməyə çalışır...

## *Ramil Hüseynov: "Bu, Paşinyan komandasının parçalanmağa doğru getdiyini göstərir"*

**Ermənistanın Baş naziri Milli Təhlükəsizlik Xidmətinin direktoru və Ermənistan polisinin rəhbərlərinin işindən guya ki, razı deyilmiş. Bunu Baş Nazirliyin aparat rəhbəri Eduard Ağacanyan deyib. Onun sözlərinə görə, Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyan və Ermənistan polisinin rəhbəri Valeri Osipyan Ermənistanın Baş naziri tərəfindən vəzifələrindən azad edilib.**



Eduard Ağacanyan bildirib ki, Vanesyan və Osipyanın fəaliyyəti Baş naziri qane etməyib və istefaların da səbəbi budur: "Hər iki vəzifəli şəxsin fəaliyyəti baş naziri qane etmədi".

Halbuki, hər iki məmur istefa qərarını özü qəbul edib və hətta hər ikisi də istefa qərarından sonra "zabir şərəfi" onlar üçün daha üstün olduğunu bəyan ediblər. Bu isə ona işarədir ki, erməni məmurlar Paşinyanın tapşırığının məhz zabit şərəfinə ləkə olacağını nəzərə alaraq, Baş nazirin tapşırığından və beləliklə də vəzifələrindən imtina edib, istefa veriblər.

Görünür, bu istefaların erməni cəmiyyətində rezonans doğuracağından ehtiyatlanan Paşinyan bu istefalara don geyindirməyə çalışır. Ancaq məsələ ondadır ki, bu istefalar artıq Ermənistanda yetərincə rezonans doğurub və hətta müxtəlif dairələrdə də müzakirələrə səbəb olub.

Bu rezonansın və müzakirələrin erməni Baş naziri üçün heç də yaxşı nəticələr verəcəyi gözlənilmir.

Əksinə, hadisələrin bundan sonra daha ciddi bir şəkil alacağı günün reallığıdır və məhz Paşinyanı da narahat edən budur. Bütün hallarda, Paşinyanın komandasında növbəti güc strukturu rəhbərlərinin istefası nə deməkdir?

### *"Güc strukturları bu məsuliyyətin altına girmək istəmirlər"*

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bu, Paşinyan komandasının parçalanmağa doğru getdiyini göstərir: "Paşinyanı dəstəkləyən "Mənim addımım" blokunda neçə müddətdir fikir ayrılıqları özünü qabarıq şəkildə göstərir. Bu günlərdə sözügedən blokda təmsil olunan İşıqlı Ermənistan Partiyasının üzvü Armen Babacanyan Rusiya Prezidentinə yönəlik kəskin tənqidi fikirlər söylədi. Daha sonra partiyadan istefa verdi. Bunlar onu göstərir ki, Paşinyan yarıtmaz siyasəti ilə ölkəni xaosa doğru sürükləyir. Vanesyan və Osipyanın bir-birinin ardınca istefası onu göstərir ki, Ermənistan hakimiyyəti özünü qorumaq, mühafizə etmək üçün məsuliyyəti güc strukturlarının üzərinə qoymaq istəyir. Güc strukturları da bu məsuliyyətin altına girmək istəmirlər. Paşinyan başda olmaqla, mövcud Ermənistan hakimiyyəti ictimai dəstəkdən məhrum olur.

**Narazılıqların dinamik şəkildə artımı, etirazların, nümayişlərin bir-birini əvəz etməsi, hər bir sahədə hakimiyyətdən narazılıqların olması onu göstərir ki, ictimai dəstəyə artıq Paşinyan komandasının ümidi yoxdur.**

Gör vəziyyət nə həddə gəlib çatıb ki, inqilab yoldaşı belə Paşinyanı tərk edir. Nəzərə almaq lazımdır ki, Osipyan Baş nazirin şəxsən inqilab yoldaşı olub".

*Vidadi ORDAHALLI*

# Paşinyan İsraildə Azərbaycandan əvvəl səfirlik açmağı hədəfləyib...

## *Nəzakət Məmmədova: "Düşmən ölkənin İsraildə səfirliyinin açılması, əlbəttə, bizim üçün arzuolunmaz haldır"*

**Erməni KİV-nin verdiyi məlumata görə, Ermənistan hökumətinin iclasında İsrail ərazisində, Təl-Əviv şəhərində səfirliyin açılması qərara alınıb. Xarici işlər naziri Zohrab Mnatsakanyan tərəfindən hazırlanan Nazirlər Kabinetinin qərarında deyilir: "İsrail Dövlətində (iqamətgahı Təl-Əvivdə) Ermənistan Respublikasının səfirliyi yaradılsın".**



Nazirin sözlərinə əsasən, İsraildə səfirlik açılması ikitərəfli əməkdaşlığın dərinləşməsinə öz töhfəsini verəcək: "Bu addım Ermənistanın Yaxın Şərqdəki maraqlarını qorumağa və orada təmsilçiliyini genişləndirməyə yönəlib". Bildirilir ki, Ermənistanla İsrail arasındakı diplomatik münasibətlər 1992-ci ildən mövcuddur.

Son vaxtlar Ermənistanın xarici siyasətində Azərbaycanın yaxın partnyorları ilə yaxınlaşma meylləri nəzərə çarpır. Məlumdur ki, İsrail də Azərbaycanın yaxın strateji müttəfiqi sayılır. Bir sıra obyektiv səbəblərə görə hələ də ölkəmizin İsraildə səfirliyi fəaliyyət göstərmir. Görünür, məhz bu boşluğu doldurmaq üçün Ermənistan diplomatiyası belə bir gediş edir. Onların bu həmləsini neytrallaşdırmaq üçün Azərbaycanın da tezliklə İsraildə səfirlik açması yerinə düşərmi?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın belə mühüm qərarı verməsi yalnız daxili amilə bağlı olan məsələ deyil: "Ermənistan hökumətinin 19 sentyabr tarixli iclasında Təl-Əvivdə səfirliyin açılması barədə qərarın qəbul edilməsinin bir sıra səbəbləri var.

Düşünürəm ki, bu, ilk növbədə, ABŞ və Rusiya arasında əldə edilmiş razılığa əsasən mümkün olub. Belə ki, Paşinyanın hakimiyyətə gəlməsində Amerika Erməni Milli Assambleyası, digər erməni diaspor təşkilatları ilə yanaşı, ABŞ yəhudi lobbisinin dəstək verdiyi bildirilir. Təbii ki, burada bir sıra amillər mühüm rol oynayıb ki, onlardan da biri İran məsələsidir. ABŞ, xüsusilə də İsrail Ermənistanda özlərinə loyal qüvvələri hakimiyyətə gətirməklə İranı şimaldan nəzarətə almaq məqsədi güdmüşlər. Belə bir şəraitdə Ermənistanın Təl-Əvivdə səfirliyinin açılması ABŞ-ın bilavasitə dəstəyi və tövsiyəsi əsasında baş tutmuş ola bilər. Burada Rusiyanın da razılığı mütləq alınmış olmalıdır. "Böyük Səkkizliyə" qayıdan Rusiya ABŞ-a bir çox məsələlərdə güzəştə getmiş ola bilər ki, bunlardan da biri Ermənistanın İsraildə səfirliyinin açılmasına etiraz edilməməsidir. Ehtimal etmək olar ki, İsrail Baş naziri Netanyahunun Putinlə görüşündə bu məsələ müzakirə olunub və razılığa gəlinib. Düşmən ölkənin İsraildə səfirliyinin açılması, əlbəttə, bizim üçün arzuolunmaz haldır. Eyni zamanda, ümid edək ki, daim Ermənistana hərtərəfli dəstək verib Azərbaycanı İsraillə əməkdaşlıqda ittiham edən İran bundan sonra Ermənistanla münasibətində bunu nəzərə alacaq.

### *"Ümid edək ki, daim Ermənistana hərtərəfli dəstək verib Azərbaycanı İsraillə əməkdaşlıqda ittiham edən İran bundan sonra Ermənistanla münasibətində bunu nəzərə alacaq"*

**Halbuki, Azərbaycanın indiyədək İsraildə səfirliyi yoxdur. Hesab edirəm ki, bizim diplomatiyamız da strateji tərəfdaşımız olan ölkədə səfirliyimizin fəaliyyət göstərməsi istiqamətində məsələni bir daha nəzərdən keçirməlidir".**

*Məhəmmədəli QƏRİBLİ*

**Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) hər hansı bir status üçün müraciət etməsə də, bu məsələ ətrafında Ermənistanda narahatlıq səngimir. Düşmən ölkədə rəsmi və qeyri-rəsmi səviyyədə verilən açıqlamalardan belə bəlli olur ki, Azərbaycan KTMT-yə hər hansı formada qoşulmaqla Ermənistanın mövqeyini burada tam şəkildə sarsıdacaq.**

# Azərbaycan - KTMT münasibətləri məsələsinin Ermənistana təsirləri səngimir...

Halbuki, Prezident Administrasiyasının xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev elə bu günlərdə bəyan edib ki, Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlük üçün müraciət etməyib: "Azərbaycan müraciət etməsə də, Ermənistan tərəfi özünün fobiyalarından və komplekslərindən çıxış edərək hər bir məsələni diplomatik çərçivədən də kənar bir şəkildə müzakirə etməyə cəhd göstərir".

Qeyd edək ki, Rusiya baş nazirinin müavini Yuri Borisovun İrəvanda verdiyi son açıqlamalar bu məsələ ətrafında Ermənistanda belə ajiotajın yaranmasına səbəb olub. Borisov həmin vaxt bildirmişdi ki, Rusiya Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında müşahidəçi statusu almağına qarşı deyil. Məsələyə yenidən qayıdan erməni politoloq Sarkis Artsruni bildirir ki, Moskva, İrəvanın istəklərinə rəğmən, KTMT çərçivəsində Azərbaycanla əməkdaşlığa meyllidir: "Rəsmi ideologiyadan üz döndərsək, Borisovun Rusiyanın imperiya siyasəti kontekstində çox təbii bir fikir açıqladığının şahidi olarıq. Moskva üçün KTMT və AİB postsovet məkanında təsirini rəsmiləşdirməyə çalışan vasitələrdir. Moskva ilə Bakı arasındakı hərbi-texniki, siyasi, iqtisadi münasibətlər müttəfiq xarakterlidir və Moskva tərəfindən Bakının Avrasiya layihələrində iştirakının istənilən formatının məqbul hesab edilməsi təbii haldır. Heç bir şübhə yoxdur ki, gec-tez Bakı belə bir dəvət alacaq və bəlkə də erməni maraqları hesabına başqa bir Rusiya-Azərbaycan pərdəarxası razılaşmasının şahidi olacağıq". Onun sözlərinə görə, Ermənistan Azərbaycanın KTMT-də müşahidəçi statusuna qarşı çıxa bilər, lakin Ermənistanı kənara itələməklə təşkilatın bütün üzvləri Azərbaycanın müraciətinə razı olduqda, "konsensus-mənfi Ermənistan" razılaşması da İrəvan üçün olduqca əlverişsiz və təhlükəli ola bilər: "Əlbəttə ki, tələşə düşmək və tələsik qərarlar qəbul etmək lazım deyil, ancaq KTMT-də olmağın və ya olmamağın dilemması məcbur edən fors-major vəziyyətlərə hazır olmaq lazımdır". O qeyd edib ki, KTMT Ermənistanın təhlükəsizliyinə zəmanət vermir: "Azərbaycanın bu təşkilatda Ermənistandan daha çox təbii müttəfiqlərinin olduğunu qeyd etmək yersiz olmazdı. Rusiya və Belarusun Azərbaycana silah satması və Qazaxıstanın da tez-tez Bakının əsas lobbiçisi kimi çıxış etməsi təsadüfi deyil. Başqa sözlə, KTMT Ermənistanın təhlükəsizliyi üçün ciddi təhdidə çevrilir. Bu kontekstdə Ermənistan rəhbərliyi də fors-major vəziyyətlərə və prinsipal qərarlar qəbul edilməsinə hazır olmalıdır".




Ermənistanın Rusiyadakı səfiri Arman Melikyan isə bildirir ki, KTMT-yə üzv olmaqla Azərbaycan Qarabağ məsələsində İrəvanı sıxmaq imkanları qazanacaq. Onun sözlərinə görə, Rusiya Azərbaycanın KTMT ilə mümkün qədər sıx əməkdaşlığında maraqlıdır və müşahidəçi statusu növbəti mərhələdə quruma üzv olmaq məsələsində ilkin addım ola bilər: "Qarabağ məsələsində təzyiqlərin artırılması baxımından KTMT ilə sıx əməkdaşlıq rəsmi Bakı üçün də yeni imkanlar aça bilər. Azərbaycanın müşahidəçi statusu alması məsələsində ilk növbədə nəzərə almalıyıq ki, rəsmi Bakı növbəti mərhələdə KTMT-nin tam üzvü ola bilər. Bu halda isə Qarabağ təşkilatın qalan üzvləri üçün həmin təşkilatın birbaşa əməliyyat sahəsində ortaya çıxacaq və rəsmi Bakının tələbilə xüsusi hərbi əməliyyatın hədəfinə çevrilə bilər".

Erməni siyasi ekspert Aram Amatuni də məsələ ətrafında kifayət qədər bədbindir: "Nizamnaməyə görə, bu məsələlər konsensus yolu ilə həll edilə bilər. Yəni Ermənistan buna qarşıdırsa, Azərbaycan və ya hər hansı bir ölkə KTMT-nin hər hansı bir statusuna sahib ola bilməz. Əlbəttə ki, xatırladılması və ya şərh edilməsi lazım olmayan çox sadə halları nəzərə alaraq, Ermənistan buna qarşıdır. Bəs, məsələ bununla bağlanır, ya yox? Təəssüf ki, yox". Onun sözlərinə görə, Rusiya Baş nazirinin müavininin açıqlaması bir çoxlarında çoxsaxəli təəssürat yaradıb:

"Bir tərəfdən xatırladırlar ki, Rusiyanın istəyindən asılı olmayaraq qərar bütün üzvlərdən, o cümlədən, əlbəttə ki, Ermənistandan asılıdır. Digər tərəfdən, bir çox insan Rusiyanın, İrəvanın buna mane olmayacağını gözlədiyi üçün, Ermənistana istəyi ilə buna işarə etdiyi təəssüratı altındadır".

Amatuni bildirib ki, nəzəri olaraq bunu müşahidə etmək mümkündür, amma praktikada istənilən Ermənistan hökumətinin, Rusiyanın istəyinin nə qədər böyük olmasından asılı olmayaraq, Bakıya KTMT statusu verməyə razı ola biləcəyini təsəvvür etmək olduqca çətindir: "Eyni zamanda, aydındır ki, hətta müzakirələr kontekstində, belə deyək, hər hansı qarşılıqlı bir qiymət şəraitində belə buna layiq, bərabər səviyyəli şəkildə olmalıdır. Məsələn, qazın satınalma qiymətinin uzunmüddətli ucuz qaz sazişi olacağı təqdirdə belə Ermənistan bu üzvlüyə razı ola bilməz. Çünki Ermənistan üçün qazın qiyməti, əlbəttə ki, bir çox digər təsirləri ilə vacib bir iqtisadi məsələdir, lakin bu, bərabər səviyyədə deyil. Məsələn, Ermənistana nüvə silahının verilməsi adekvat ola bilər. Əlbəttə ki, bu barədə danışmağın belə ciddi olmadığı görünür, amma buna baxmayaraq, problem müqayisədədir, Ermənistanın razılığı, bu barədə düşünmək mümkün olsa, ekvivalent dəyərə sahib olmalıdır və qiymət baxımından çox yüksək olmalıdır. Amma problem odur ki, Ermənistanın istəkləri nəzərə alınmır, xüsusən də Rusiya tərəfindən. Ona görə, Bakı istəyinə asanlıqla nail ola bilər. Bu isə Qarabağ məsələsində Ermənistan üçün əlavə problemlər deməkdir".

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın Qarabağ siyasəti tam iflasda - Putin ikitərəfli görüşdən və şam yeməyindən imtina edə bilər...

**Rusiya və Ermənistan arasında cərəyan edən son proseslər bu iki ölkənin münasibətlərində artıq ciddi çatların yarandığını göstərir. Belə görünür ki, Moskva birmənalı şəkildə Ermənistan hakimiyyətinin siyasətindən narazıdır və hətta onu açıq şəkildə rədd də edir. Hər halda, Rusiya prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikol Paşinyanın ikitərəfli görüş təklifini rədd etməsi də bunun təsdiqi sayıla bilər.**

Ermənistanın "168 Jam" qəzeti yazır ki, Rusiya prezidenti Ermənistanda baş tutacaq Avrasiya İqtisadi Birliyi formatında tədbirlərdə iştirak edəcək və dərhal geri qayıdacaq. O, hətta rəsmi şam yeməyinə də qatılmayacaq: "Putin Ermənistana bir neçə saatlıq baş çəkəcək. Səfər zamanı o, İrəvanda qalmayacaq və sadəcə Avrasiya Birliyi çərçivəsində görüşlərdə iştirak edib Moskvaya qayıdacaq. Rusiya lideri, hətta liderlərin şərəfinə verilən rəsmi şam yeməyində də iştirak etməyəcək. Üstəlik, erməni tərəfi Paşinyanla Putinin ikitərəfli görüş keçirməsini rica etsələr də, Putin Ermənistan baş nazirinin görüş təklifinə rədd cavabı verib". Bütün bunlar Rusiya və Ermənistan arasında münasibətlərin artıq kritik bir mərhələyə qədəm qoyduğunun real təsdiqi sayılır. Aydındır ki, baş verənləri özünü müxtəlif istiqamətlərdə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə ilgili vəziyyətdə də göstərəcək. Hesab olunur ki, bu durumda Moskva İrəvana təzyiq üçün Qarabağ kartından da geniş şəkildə istifadə edəcək. Bunu rus hərbi ekspert Aleksandr Xramçixin də istisna etmir. O güman edir ki, Rusiya yaranmış vəziyyətdə, Ermənistanın mövqeyinin əksinə olaraq, Azərbaycanla hərbi-texniki sahədə əməkdaşlığı daha da genişləndirəcək. Onun sözlərinə görə, belə vəziyyət Azərbaycanın hərbi mövqelərinin daha da güclənməsi demək olacaq. Eləcə də Qarabağ məsələsində Moskvanın digər bir sıra mühüm addımlar atması da istisnalıq təşkil etmir: "Bu gün Rusiya-Azərbaycan hərbi-texniki münasibətləri kifayət qədər yaxşı məcradadır. Düşünürəm ki, nə Rusiya, nə də Azərbaycan, xüsusilə Ermənistan amilini nəzərə aldıqda, hansısa problem barədə düşünür. Əksinə, İrəvanın son addımları Bakı və Moskvanı biri-birinə daha çox yaxınlaşdırır. Aydındır ki, bu hal Qarabağ məsələsində də özünü göstərməlidir".

Çox maraqlıdır ki, indiyə qədər daha çox ermənipərəst mövqeyi ilə tanınan rusiyalı ekspert Modest Kolerov da məsələyə eyni prizmadan yanaşır. O hesab edir ki, artıq Ermənistan hakimiyyətinin Nikol Paşinyan timsalında Moskva ilə münaqişəyə girdiyi təsəvvürü yaranır: "Sentyabrın 16-da Nikol Paşinyanın Konstitusiya Məhkəməsinin statusunu şübhə altına almasından başlayaq. Hələ o dövrdə də məhkəmənin qərarının nəzərə alınmayacağı məlum idi. Paşinyan "ədalətə keçid" sistemi qurmağa çalışsa da, buna nail ola bilmədi. Nəticədə, ədaləti "əl ilə idarə edilən" rejimə keçirdi. Bunu niyə etdiyi aydındır. Əgər o, dövlət çevrilişini inqilab adlandırırsa, buna uyğun olaraq da özünü inqilabçı kimi aparmalı, inqilab diktaturası qurmalıdır. Bu durumda Paşinyanda belə bir fikir formalaşıb ki, Moskva Ermənistanın Avrasiya İqtisadi Birliyində və KTMT-də təmsil olunmasında maraqlıdırsa, o zaman Moskvaya öz iradəsini qəbul etdirə bilər. Bu isə kifayət qədər yanlış fikirdir. Düşünürəm ki, vaxt keçdikcə Paşinyan Moskvanın Cənubi Qafqazdan və Ermənistandan çıxarmağa çalışır: "Amerikalılar hədəflərinə çatsalar, Moskvanın regiondakı nüfuzu və təsiri son iki yüz il ərzində minimuma enəcək. Təbii ki, Rusiya bununla barışmayacaq və bu da Ermənistan üçün yaxşı heç ilə nəticələnməyəcək".

Bu, Moskvanın səbri tükənənə qədər davam edəcək. Hərbi-texniki əməkdaşlığa nəzər salaq: bu yaxınlarda Nikol Paşinyan Ermənistanın hərbi-sənaye kompleksi qarşısında nəinki silah istehsalı, eyni zamanda, xarici bazarlara çıxmaq tapşırığı qoyub. Bu gülməlidir. Ermənistan prinsip etibarilə silah istehsal edə bilməz. Bu isə o deməkdir ki, Paşinyan Rusiya ilə silahlanma bazarında da rəqabət imkanından danışır. Eynilə, Paşinyan bu yaxınlarda Rusiyanın maraqlarına zidd olaraq qlobal erməni kəşfiyyatının yaradılması barədə tapşırıq verib. Düşünürəm ki, Paşinyan hansısa plan üzrə hərəkət edir. Bu onun psixoloji vəziyyəti ilə bağlıdır. Paşinyan bəzi dövlətlər kimi Rusiyanın səbrini sınayır. Düşünürəm ki, Moskvanın Ermənistan üçün səsləndirdiyi siqnal kifayət deyil. İrəvanda bunu ciddi qəbul etmirlər. Nə Bakıda, nə Moskvada, nə də İrəvanda illüziya qurmaq lazım deyil". Ekspert vurğulayır ki, hadisələrin belə inkişafı Rusiya və Ermənistan arasındakı münasibət bağının qopmasına gətirib çıxaracaq: "Təkrar edirəm, Paşinyan Rusiya ilə münasibətləri qoparacaq. Bu isə Ermənistana msbət heç nə vəd etmir. İrəvan bölgədə Türkiyə və Azərbaycan faktorunun mövcudluğunu yaddan çıxarmamalıdır". Rusiyalı siyasətçi, keçmiş millət vəkili Semyon Baqdasarov isə bu fonda qeyd edir ki, Paşinyanın yardımı nəticəsində amerikalılar Rusiyanı Cənubi Qafqazdan və Ermənistandan çıxarmağa çalışır: "Amerikalılar hədəflərinə çatsalar, Moskvanın regiondakı nüfuzu və təsiri son iki yüz il ərzində minimuma enəcək. Təbii ki, Rusiya bununla barışmayacaq və bu da Ermənistan üçün yaxşı heç ilə nəticələnməyəcək".

Aydındır ki, Rusiyanın əlini Ermənistanın üzərindən çəkməsi İrəvanın durumunu xeyli ağırlaşdıracaq. Belə vəziyyət avtomatik qaydada Qarabağ münaqişəsinin gedişinə də təsir edəcək. Bunu Ermənistanın "1in.am" saytı da xüsusi olaraq qeyd edir. Sayt yazır ki, Ermənistan və Rusiya arasında münasibətlərdə problem olduğu bir vaxtda ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan sabiq həmsədri Metyu Brayza tərəfindən yeni Qarabağ savaşının ola biləcəyinə dair səslənən fikirlər heç də təsadüfə oxşamır: "Aydındır ki, Rusiya bölgədə savaşı önləyəcək mühüm mövqe sahibi kimi çıxış edir. Amma hazırda Rusiya ilə Ermənistan hakimiyyətinin münasibətlərində böhran qeydə alınır. Bu isə yeni Qarabağ savaşını tətikləyə bilər. Hər halda, Azərbaycan baş verənləri diqqətlə izləyir. Bu durumda ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan sabiq həmsədri Metyu Brayzanın bəyanatı Ermənistanda kifayət qədər böyük diqqətə və müzakirələrə səbəb olub. Brayza Dağlıq Qarabağ problemindən, o cümlədən Azərbaycan rəhbərliyinin Nikol Paşinyandan "konstruktiv" gözləntilərindən, lakin bunun özünü doğrultmadığından danışıb. ABŞ-dan olan sabiq həmsədr həmçinin bəyan edib ki, Qarabağ problemi iki dəfə tənzimlənməyə yaxın olub. Lakin 27 oktyabr 1999-cu ildə parlamentin güllələbaran edilməsi, sonra isə post-patrul alayının ələ keçirilməsi hadisələri baş verib.

Brayza həmsədr olub və şübhəsiz, hətta ekspert dairələrinin əhəmiyyətli hissəsinin əli çatmayan informasiyalara malikdir. Bununla birlikdə, uzun illər ərzində hamıya məlum oldu ki, Brayza artıq uzun müddətdir Türkiyə-Azərbaycan lobbiçisi kimi də fəaliyyət göstərir. O, sadəcə de-fakto Türkiyə-Azərbaycan maraqlarının lobbiçisidir və söhbət geniş maraqlardan, o cümlədən enerji, infrastruktur layihələrindən və sairdən gedir. Digər tərəfdən, əlbəttə, burada o da unudulmamalıdır ki, onun Qarabağ bəyanat təsadüfi deyil. Beləliklə, anlamaq lazımdır ki, onun yeni qiymətləndirmələri şəxsi təşəbbüsünün, yoxsa de-fakto lobbiçi fəaliyyətinin bir hissəsidir. Başqa sözlə, Azərbaycan və ya Türkiyədən ondan hər hansı bir mövzunu ictimailəşdirməyi və Ermənistana "ünvanlamağı" xahiş ediblər, yoxsa ABŞ-dan olan sabiq həmsədr sadəcə öz mövqeyini ifadə edib? İstənilən halda, elə alınıb ki, bəyanat Ermənistana "ünvanlanıb" və İrəvanda qızğın müzakirələrin predmeti olub. Hətta məsələ Paşinyanın Bakı ilə hansısa razılaşmasının olması haqqında "sui-qəsd" nəzəriyyələrinədək gedib çıxıb. Başqa sözlə desək, Brayza artıq İrəvanda, istəsək də, istəməsək də, Bakı üçün ən azı bir məqsədə nail olub. Lakin buna baxmayaraq, o da unudulmamalıdır ki, söhbət diplomatdan, özü də amerikan diplomatından gedir. Və burada Brayzanın dediyi, demək olar ki, ən həlledici məsələ qeyd olunmalıdır. Faktiki olaraq o deyir ki, Ermənistan tarixində iki mühüm əhəmiyyətli faciəvi qanlı hadisə - 199-cu il 27 oktyabr və 2016-cı ilin iyul hadisələri Qarabağ münaqişəsinin tənzimlənməsinə yaxınlaşmaq üçün baş verib.

Burada məsələ onda deyil ki, o, səbəb-nəticə əlaqəsi, motivi planında düz danışır və ya sərbəst şərh verir. Məsələnin özəyi odur ki, "yaxın" tənzimləmə halında nə baş verəcək. "Yaxın" tənzimləmə anlayışı danışıq prinsiplərinin açıqlanan mənasında, yəni hər hansı bir şey və status-kvonun faktiki dəyişdirilməsi müqabilində ərazilərin qaytarılmasını özündə ehtiva edir. Bu "tənzimləməni" pozan hansısa halda qan tökülməsi qaçılmaz olacaq. Başqa sözlə, Brayza sadəcə işarə edir ki, status-kvo dəyişdirilməsi üçün qan tökülməsi qaçılmazdır.

Buna uyğun olaraq, münaqişənin tənzimlənməsi prosesinə beynəlxalq baxış dəyişməlidir və məsələnin, necə deyərlər,"ərazilərin qaytarılması" prinsipi əsasında "tənzimlənməsi"nin mümkünlüyü diqqət mərkəzinə gətirilir. Və qan tökülməsindən yayınmaq naminə atılacaq minimal addım, ən azı, danışıqlarda hansısa irəliləyişə nail olmaqdır. Əks halda, ən azı, dördgünlük aprel döyüşlərinin yenidən təkrarlanma ehtimalı yüksəlir. Həmin vaxt döyüşlərin dayandırılmasında Rusiyanın rolunu isə həm Ermənistan, həm də Azərbaycan etiraf edir. Amma o vaxtdan bəri çox şey dəyişib. Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Rusiyanın özünün bölgəyə münasibətində artıq fərq var. Bu fərq indiki vəziyyətdə Ermənistanın lehinə deyil və pisləşən münasibətlər Bakının gücə əl atma ehtimalını yüksəldir. Hər halda, bunları Ermənistanı hakimiyyətinin mütləq şəkildə nəzərə alması çox önəmlidir". Bütün bunlar Qarabağ münaqişəsi ətrafında olduqca maraqlı bir vəziyyətin yaranmaqda olduğunu aydın nümayiş etdirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Qarabağ əlili olmaq heç kimə yol polisinin qanuni tələbini qanunsuz iqnor etməyə əsas vermir - xuliqanlığı dəstəkləyənlərə mesaj...

**Sosial şəbəkələrdə sürücünün yol polisi inspektorunu təhqir etməsi ilə bağlı videogörüntü yayılıb. Açıq-aydın görünür ki, sürücü çox kobud söyüşlərlə DYP inspektorunu təhqir edir. Buna rəğmən, DYP əməkdaşı özünü qanunun tələblərinə uyğun şəkildə aparır. Yayılan rəsmi məlumatda bildirilir ki, sürücünün bu hərəkətlərinə hüquq-mühafizə orqanları tərəfindən hüquqi qiymət verilib.**

***Mehman Muradlı:** "Dəfələrlə şahidi olmuşam ki, "Qarabağda döyüşmüşəm" deyən şəxslər məmurları, sahibkarları şantaj edirlər və özlərinə hüquq tanımaq üçün digərinin hüququnu pozurlar"*

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyevin verdiyi məlumata görə, idarədə aparılan ilkin araşdırma zamanı müəyyənləşdirilib ki, sentyabrın 17-də günorta saatlarında 1967-ci il təvəllüdlü, Yasamal rayonunda müvəqqəti qeydiyyatda olan Fəxrəddin Nəsirov idarə etdiyi "KİA" markalı avtomaşınla Nərimanov rayonunun Xətai prospektində hərəkətdə olarkən təhlükəsizlik kəmərindən istifadə etmədiyinə və qanunsuz taksi fəaliyyəti ilə məşğul olduğuna görə yol polisi tərəfindən saxlanıb. Yol polisi sürücü F.Nəsirovun barəsində inzibati xəta haqqında protokollar tərtib etdikdə sonuncu aqressiv formada polis əməkdaşının ünvana etik çərçivədən kənar ifadələr işlədib, ona fiziki təzyiq göstərərək həmin yerdən uzaqlaşıb. Bakı Şəhər Baş Polis İdarəsi Cinayət Axtarış İdarəsi və Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində sürücü Binəqədi rayonunda saxlanaraq Polis Şöbəsinə gətirilib.

Vətəndaşla aparılan izahat və araşdırma zamanı o, şəkər və əsəb xəstəliyindən əziyyət çəkdiyini, əməlindən peşman olduğunu bildirib, polis əməkdaşlarından üzr istəyərək həmin vaxt anlaqsız vəziyyətdə olduğunu deyib.

Faktla bağlı Nərimanov Rayon Polis İdarəsində davam etdirilən araşdırma zamanı toplanmış material əsasında F.Nəsirov Nərimanov Rayon Məhkəməsi tərəfindən İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (Polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə) maddəsi ilə məsuliyyətə cəlb olunmaqla, 15 gün müddətinə inzibati qaydada həbs edilib.

Qeyd edək ki, polisə qarşı xuliqanlıq hərəkəti edən şəxsin Qarabağ müharibəsi veteranı olduğunu əsas gətirib, ona haqq qazandırmağa çalışanlar da var. Bu qəbildən olanlar iddia edirlər ki, guya müharibə veteranı barəsində 15 günlük inzibati həbsin seçilməsi doğru deyil. Onda belə çıxır ki, qanunun aliliyi kiminsə veteran statusu daşımasına görə arxa plana keçməli idi?

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, son zamanlar maraqlı tendensiyalar müşahidə edilir: "Hakimiyyətin vətəndaşların şikayətinə, müraciətlərinə daha operativ yanaşmasından, olunan şikayətlərlə bağlı ciddi tədbirlərin görülməsindən bəziləri şantaj məqsədilə istifadə etməyə çalışırlar. Belə hədəfə tuş gələnlərin sırasında vətəndaşlarla birbaşa ünsiyyətdə olan vəzifə sahibləri daha çox olur. Məmurları, əsasən də polis əməkdaşlarına təhqir dolu ifadələrlə söyməklə yanaşı, onların şantaj edilməsi də geniş vüsət alıb. Sanki həmin şəxslər sosial şəbəkədəki təhqirləri real həyata gətiriblər.




Bu cür şəxslər barəsində qanunamüvafiq tədbir görüləndə isə onların ya Qarabağ döyüşçüsü olmasını qabardır, ya da hansısa bir imtiyazını əsas gətirirlər. Sadəcə, məsələnin problemli tərəfi ondan ibarətdir ki, bu cür şəxslər qanun qarşısında hamının bərabər olması haqqında Konstitusiyada təsbit edilməş müddəanı unudurlar.

Dəfələrlə şahidi olmuşam ki, "Qarabağda döyüşmüşəm" deyən şəxslər məmurları, sahibkarları şantaj edirlər və özlərinə hüquq tanımaq üçün digərinin hüququnu pozurlar. Məsələn, biz praktikamızda tez-tez müharibə veteranları tərəfindən avtomobilləri əzilən vətəndaşlarla rastlaşırıq. Əksər belə hallarda görürük ki, veteranların idarə etdiyi maşınların nömrəsi olmur, bütün şüşələri qara ortüyə bürünür, sığortaları belə olmur. Zərər vurduqları adamların avtomobillərini düzəltməkdən boyun qaçırırlar. Bütün bunları Qarabağda döyüşdükləri ilə əlaqələndirməyə çalışırlar. Bilirsiniz ki, dövlətimiz həmin kateqoriyadan olan insanlara müəyyən imtiyazlar verir. Onlar avtomobil, mənzillə təmin olunurlar. Bütün bunlar olduğu halda, kiməsə imkan verilmir ki, statusundan istifadə edib, qanunun tələblərini pozsun.

Bu cür şəxslərin qanunsuz hərəkətlərinə və açıq təhqirlərinə görə sonradan KİV vasitəsilə üzr istəməsi hesab edirəm ki, tərbiyəvi xarakter daşıyır".

***Məhəmmədəli QƏRİBLİ***

# Prokuror Hüseyn Abdullayevə 8 il cəza istədi



**Bakı Hərbi Məhkəməsində sabiq deputat Hüseyn Abdullayev, onun anası Zeynəb Abdullayeva, Həbib İbrahimov, Xalid Əliyev, Namiq Babayev, İntiqam Süleymanov, Pərviz Kazımov, Zaur Quliyev və Nazim Əliyevin cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

"Trend"in məlumatına görə, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə prokuror Hüseyn Abdullayevin 8 il, Namiq Babayevin 8 il, İntiqam Süleymanovun 6 il, Nazim Əliyevin 6 il azadlıqdan məhrum edilməsini istəyib.

Prokuror keçmiş Dövlət Sərhəd Xidməti əməkdaşlarına 4 il sınaq müddəti olmaqla şərti cəza istəyib.

Dövlət ittihamçısı, həmçinin H.Abdullayevin anası Zeynəb Abdullayevanın 5 min manat cərimələnməsini istəyib.

Prokurorun çıxışı zamanı Hüseyn Abdullayev ittihamın yalan, qondarma olduğunu bildirib. Hakim Hüseyn Abdullayevi prokurorun çıxışına etiraz bildirdiyinə görə zaldan çıxarıb. Bu zaman onun anasının ürəyi gedib. Məhkəməyə təcili yardım çağırılıb.

Dövlət ittihamçısı, həmçinin, iş üzrə Vergilər Nazirliyinin qaldırdığı mülki iddianın təmin olunmasını da istəyib.

Təqsirləndirilən şəxslərin müdafiəçiləri çıxış üçün vaxt istəyiblər.

Proses sentyabrın 26-da davam edəcək.

Rəsmi məlumata görə, ayrı-ayrı vətəndaşların Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 14 fevral 2018-ci il tarixdə başlanmış cinayət işi üzrə H.Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi "Araz-İnşaat" ASC-də onun tapşırığına əsasən, müəssisənin idarə olunmasını həyata keçirən Babayev Namiq İsmixan oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında Cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək, ümumilikdə, 1 milyon 374 min manat məbləğində gəlirlərin Cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividendləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib.

Təqsirləndirilən şəxslərdən bəziləri Dövlət Sərhəd Xidmətinin əməkdaşlarıdır. Bu səbəbdən cinayət işi Bakı Hərbi Məhkəməsinə göndərilib.

İş üzrə zərərçəkmiş şəxs qismində 28 nəfər tanınır.

**Xatırladaq ki, iş üzrə təqsirləndirilən Z.Abdullayeva, H.İbrahimov, Z.Quliyev və P.Kazımov barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.**

**Açıqlanan statistik rəqəmlərə əsasən, Azərbaycanda onkoloji xəstələrin ümumi sayında artım var. 2017-ci ildə müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan xəstələrin sayı 45 min 756, 2018-ci ildə isə bu rəqəm 48 min 685 olub. Məlumdur ki, onkoloji xəstəlikdən əziyyət çəkənlər dövlət tərəfindən müalicə olunur.**

# Onkoloji xəstələrin dərmanla təchizatında yeni vəziyyət - büdcə vəsaitini necə artırmaq olar?

## *Adil Qeybulla: "Azərbaycanda onkoloji xəstələrin müalicəsi üçün büdcədən ayrılan vəsaitin həcmi artmalıdır"*



Qeyd olunan xəstəlikdən əziyyət çəkənlərin sağalması üçün Milli Onkologiya Mərkəzində bütün dərmanlar və şərait var.

Bu günlərdə onkoloji xəstələr üçün nəzərdə tutulan dərman preparatlarının apteklərdə satılması təklif olunub. Millət vəkili Musa Quliyev Milli Məclisin Səhiyyə komitəsinin iclasında çıxış edərək bildirib ki, onkoloji xəstələrin müalicəsi ilə bağlı maliyyə problemləri var: "Ötən il Azərbaycanda onkoloji xəstələrin müalicəsi üçün büdcədən 30 milyon manat ayrılıb. Buna görə də ayrılan vəsaitin məbləği artırılmalıdır".

Deputat təklif edib ki, onkoloji xəstələrin müalicəsi üçün apteklərdə bəzi dərmanların satışına icazə verilsin.

Onkoloji xəstəlik xəstənin yaxınına mənəvi zərbə vurmaqla yanaşı, həm də maddi baxımından təsir edir. Onkoloji xəstələr üçün nəzərdə tutulan dərmanlar xəstəxanalarda pulsuz verildiyi halda, preparatın aptekdə satılması düzgün deyil. Ekspertlərin fikrincə, onkoloji xəstələr üçün lazım olan dərman aptekdə satışa çıxarılarsa, tibb müəssisələrində vətəndaşlara pulsuz preparat verilməyəcək. Bu səbəbdən də adıçəkilən dərmanların aptekdə satılmasına deyil, onkoloji xəstələrin müalicəsi üçün büdcədən ayrılan vəsaitin artırılmasına ehtiyac var.

Professor, həkim-ekspert Adil Qeybulla bizimlə söhbətində qeyd etdi ki, xərçəngin müalicəsi digər xəstəliklərlə müqayisədə bahadır: "Etiraf edək ki, bu xəstəliyin müalicəsi tək ölkəmizdə deyil, dünyanın hər yerində bahadır. Ancaq dünyanın hər yerində bunu sığorta qarşılayır. Qeyd etdiyim kimi, onkoloji xəstəliyin müalicəsi bahalı prosedurlar siyahısındadır. Bu səbəbdən də onkoloji xəstəlik üçün nəzərdə tutulan dərmanların əksəriyyəti xəstəxanalarda xəstələrə pulsuz verilir. O ailələrə yardım etmək üçün dərmanların bəzisi deyil, lazım olan preparatların hamısı pulsuz verilməlidir. Azərbaycanda onkoloji xəstələrin müalicəsi üçün büdcədən ayrılan vəsaitin həcmi artmalıdır. Nəzərə almaq lazımdır ki, adıçəkilən xəstəlikdən əziyyət çəkənlərin sayı artır".

Alimin sözlərinə görə, xərçəng xəstələrinin xüsusi çəkisi ümumi xəstələnmə sayında bütün dünyada artma tendensiyası ilə gedir: "Bunun səbəbləri çoxdur. Ekoloji problem, qida təhlükəsizliyi, su problemi, dərmanlar və s. bu prosesdə rol oynayır.

Xərçəng xəstəliyinin törədicilərinin sayının xüsusi çəkisinin artması Azərbaycanda da dünya statistikasına uyğun olaraq artır. Ölkəmizdəki problem elə dünyadakı ilə eynidir. Məsələn, sübut olunub ki, 1 kubmetr havada nano qram binzo prent törəməsi varsa, bu artıq hər 20 nəfərdən birində xərçəng olmasına gətirib çıxarır. Bundan başqa, siqaret çəkənlərin sayının artması, keyfiyyətsiz qidalar, tərkibində müxtəlif ziyanlı emulqatorlar, inqrediyentlər olan qidalar və bunların xüsusi çəkisinin artması orqanizmi zəifledir. Nəticədə orqanizmin bu xəstəliyə tutulması asanlaşır.

**Xərçəng zəif metobolizmi sevir. Bunun yolu ondan ibarətdir ki, Azərbaycana idxal olunan ərzaqların keyfiyyət parametrlərini mümkün qədər yüksəltmək, ərzaq təhlükəsizliyinə diqqət etmək lazımdır. Əhalini aktiv idmana yönəltmək lazımdır. İnsanlar bədənə daxil olan və çıxan kalori arasında balans yarada bilməlidirlər. Amma təəssüf ki, əksinə, insanlar çoxlu qida qəbul edirlər, az hərəkət edirlər, bunun da xərçəng şişinin əmələ gəlməsində rolu var".**

*Günel CƏLİLOVA*

---

**Tibb sahəsinin əlavə dəyər vergisindən azad edilməsi təklif edilir. Belə bir təklif Milli Məclisin Səhiyyə komitəsinin ötən iclasında millət vəkili, Azərbaycan Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini Kəmaləddin Qafarov tərəfindən səslənib.**

# Tibbi fəaliyyətin ƏDV-dən azad olunması təklifi rəsmiləşsə...

## *Rəşad Həsənli: "Özəl sektorda qiymətlərin dövlət xəstəxanalarına nisbətən baha olması vətəndaşların həmin klinikalara əlçatanlığını nisbətən aşağı salır"*



Millət vəkili çıxışı zamanı tibb sahəsinin əlavə dəyər vergisindən azad edilməsinin vacib olduğunu bildirib.

Ekspertlər də tibb sektorunun əlavə dəyər vergisindən azad olunması təklifini müsbət qarşılayırlar. Onların fikrincə, bu təklif real olarsa, xəstəxanalarda xəstə qəbulunun qiyməti dəyişər, eyni zamanda, bu hal dərman preparatlarının qiymətinə də təsir edər.

İqtisadçı-ekspert Rəşad Həsənli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda səhiyyə sisteminin inkişaf etdirilməsi qarşıya məqsəd qoyulub. Bu sektor istənilən səviyyədə olmadığı üçün, Azərbaycandan xarici ölkələrə kifayət qədər valyuta axını baş verir: "Nəzərə almaq lazımdır ki, əhalinin sağlamlığı strateji məsələdir. Ölkə daxilində sağlamlıqlarını bərpa edə bilməyənlər xarici ölkələrə üz tuturlar. Danılmaz faktdır ki, müalicə məqsədilə Azərbaycandan ən çox İrana səfər edilir".

Həmsöhbətimizin sözlərinə görə, son zamanlar səhiyyənin özəl sektorunda inkişaf qeydə alınır. Özəl sektorda qiymətlərin dövlət xəstəxanalarına nisbətən baha olması vətəndaşların həmin klinikalara əlçatanlığını nisbətən aşağı salır: "Vətəndaşların İrana üz tutması səbəblərindən biri keyfiyyətli xidmət almaq məqsədi daşıyırsa, digər səbəb isə daha aşağı qiymətlə xidmətləri istehlak etməkdir. Bu baxımdan, ölkənin səhiyyə sistemində xidmətlərin əlçatanlığının artırılması, həmçinin, rəqabətliyin təmin olunması məqsədilə əlavə dəyər vergisi də daxil olmaqla, müxtəlif vergi güzəştlərinin tətbiq olunması məqsədəuyğundur.

### *"...səhiyyə sahəsinə güzəştlər tətbiq olunmalıdır"*

Nəzərə almaq lazımdır ki, səhiyyə sahəsi strateji sahədir. Əhalinin sağlamlığı baxımından tibb sektoruna müəyyən güzəştlər olunması vacibdir. Eyni zamanda, dövlət səhiyyə sistemində xidmətlərin keyfiyyətinin aşağı olması insanların özəl sektora müraciət etməsinə səbəb olur. Bu sektora güzəştlər tətbiq olunmadığı üçün, özəl xəstəxanalarda qiymətlər əhalinin büdcəsinə uyğun deyil. Onu da nəzərə almaq lazımdır ki, səhiyyə sahəsi dünyada sürətli dinamika nümayiş etdirir. Tibb sektorunun inkişaf etməsi, texnologiyanın mütəmadi olaraq yenilənməsi bu istiqamətdə böyük xərc formalaşdırır. Bu səbəbdən də tibb sahəsində güzəştlər tətbiq olunmalıdır".

*Günel CƏLİLOVA*

# Azərbaycanda 565 minə yaxın uşaq sosial təminat növləri ilə təmin olunub

**Azərbaycanda uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət tərəfindən məqsədyönlü siyasət həyata keçirilir. Xüsusən də əlilliyi olan, valideynlərini itirən, o cümlədən də aztəminatlı ailələrdən olan uşaqlara dövlət hərtərəfli qayğı göstərir.**

Rəsmi məlumatlara görə, bu il Azərbaycanda 565 minə yaxın uşaq sosial təminat növləri ilə əhatə olunub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən ailə başçısını itirməyə görə aylıq sosial müavinət və ya əmək pensiyası ödənilənlərin 166 min nəfəri, ünvanlı dövlət sosial yardımı ilə təmin olunan ailələrdəki ailə üzvlərinin (65 min ailə, 270 min ailə üzvü) 140 minə qədəri uşaqlardır. Həmçinin yeni doğulan uşaqlara görə, ailələrə birdəfəlik müavinət verilir və təkcə ötən il ərzində 130 minə yaxın uşağa görə birdəfəlik müavinət ödənilib.

ƏƏSMN-in İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən mətbuata verilən məlumata görə, o cümlədən, şəhid ailələrinin, müharibə səbəbi ilə əlaqədar əlilliyi olanların, Çernobıl AES qəzası ilə əlaqədar I və II dərəcə əlilliyi olan, yaxud vəfat etmiş valideynlərin, müddətli həqiqi hərbi xidmət qulluqçularının, həmçinin beşdən çox uşağı olan qadınların uşaqları, aztəminatlı (ünvanlı dövlət sosial yardımı alan) ailələrin 1 yaşadək və valideynlərini itirmiş və sağlamlıq imkanları məhdud 92.8 min uşağın sosial müdafiəsi üçün aylıq sosial müavinət verilir. İl ərzində 35 minə yaxın 3 yaşadək uşağa qulluğa görə onların sığortaolunan valideynlərindən birinə müavinət ödənilir.

Ümumilikdə il ərzində Azərbaycanda 565 minədək uşaq birbaşa və müxtəlif sosial proqramlar vasitəsilə maddi formada dəstəklə əhatə olunur.

Bununla bərabər, cari ildə dövlət başçısının təqdim etdiyi və vətəndaş rifahının təminatı sahəsində inqilabi addımların atılmasını təmin edən sosial islahatlar paketinin tərkib hissəsi kimi, uşaqlara yönələn sosial ödənişlər də ciddi şəkildə artırılıb: sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün sosial ödənişin məbləği 82 manatdan 2,4 dəfə artırılmaqla 200 manata çatdırılıb. Onlar üçün müavinətin məbləği 82 manatdan 150 manata çatdırılmaqla yanaşı, həmin uşaqlara qulluq edənlər üçün 50 manat məbləğində aylıq təqaüd təsis edilib. Həmçinin beşdən çox uşağı olan qadınların hər uşağına görə müavinət 33 manatdan 55 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün hər uşağa görə müavinət 68 manatdan 100 manata, uşaqların qəyyumları (himayəçiləri) üçün müavinət 61 manatdan 100 manata, ailə başçısını itirməyə görə müavinət hər ailə üzvü üçün 68 manatdan 80 manata, yeni doğulan uşaqlara görə birdəfəlik müavinət 109 manatdan 200 manata çatdırılıb.

## Ruslan Atakişiyev: *"Dövlət belə uşaqlara hər zaman həssaslıqla yanaşır və onların sosial təminatını əhatə edən addımlar atır"*



Məsələni baki-xeber.com-a şərh edən tanınmış iqtisadçı ekspert Ruslan Atakişiyevin bildirdiyinə görə, dövlət tərəfindən atılan bu addım cəmiyyətin həssas təbəqəsinə aid olan uşaqları əhatə etməsi olduqca müsbətdir. R.Atakişiyev bildirdi ki, burada əlilliyi olan uşaqlara xüsusi diqqət yetirilməsi də təqdirəlayiqdir: "Əlbəttə, il ərzində 565 minə yaxın uşağın sosial təminat növləri ilə əhatə olunması müsbət haldır. Bu uşaqların sırasında əlilliyi olanlar da, valideynlərindən birini itirənlər də, şəhid ailələrinin övladları da var. Bunlar cəmiyyətin həssas qrupuna daxil olan uşaqlardır. Belə uşaqların sosial təminatı mütəmadi olaraq dövlətin diqqətində olmalıdır, olur da. Dövlət belə uşaqlara hər zaman həssaslıqla yanaşır və onların sosial təminatını əhatə edən addımlar atır. Əlbəttə, bütün bunlar müsbət məsələdir. Ancaq bir məsələni vurğulamaq istəyirəm ki, əlilliyi olan uşaqların vəziyyətinin daha dərindən öyrənilməsinə ehtiyac var. Elə əlil uşaqlar var ki, onlar məktəbə gedə bilmir və evdə təhsil alır. Bu da onların sosiallaşmadan kənarda qalmasına səbəb olur. Bu uşaqlar sonradan cəmiyyətə qaynayıb-qarışa bilmir. Deyim ki, belə uşaqların əksəriyyəti evdə valideynlərinə deyirlər ki, mən də məktəbə getmək istəyirəm, mənə də məktəbli forması, çanta alın. Bundan başqa, o uşaqların həkimə, eləcə də reabilitasiya mərkəzlərinə, xüsusi məktəblərə aparılması sahəsində də nəqliyyatla bağlı ciddi problem var. Valideyn hər dəfə onları taksi ilə apara bilmir, bilirsiz ki, nəqliyyat xərcləri çox bahadır. Təklif edərdim ki, əlilliyi olan uşaqların reabilitasiya mərkəzlərinə, həkimə, eləcə də onlar üçün xüsusi məktəblərə aparılması üçün xüsusi avtobuslar ayrılsın və bu avtobuslar uşaqları həmin yerlərə aparsın. Bu məncə, çox yaxşı bir hal olardı. Bütövlükdə isə həssas qruplardan olan uşaqların sosial təminatının dövlət tərəfindən həll edilməsi müsbət hadisədir".

R.Atakişiyevin sözlərinə görə, belə uşaqlara münasibətdə cəmiyyət də, məktəblər də həddən artıq həssas olmalıdır. Dövlət qayğısı ilə əhatə olunan bu kateqoriyaya mənsub uşaqların ətrafdan da böyük diqqət, dəstək umduğunu deyən R.Atakişiyevin bildirdiyinə görə, onlara cəmiyyətdən dəstək göstərilməsə biz onları özümüzdən kənarlaşdırmış olarıq.

**"Bu uşaqların maddi cəhətdən təmin olunmasına dövlət dəstək göstərir, gərək cəmiyyət də, əlaqədar qurumlar da onlara mənəvi dəstək göstərsinlər. Bu kateqoriyalardan olan uşaqlara dövlətin maddi yardımları artırması müsbət haldır. Onların nəqliyyatla bağlı problemləri də həll edilsəydi bu da yaxşı olardı" - deyə R.Atakişiyev vurğuladı.**

***İradə SARIYEVA***

# Şagirdlər arasında skolioz xəstəliyinin artımını necə kəsmək olar?

***Leyla Bayramlı:** "Valideynlər uşaqlarını skolioz, kifoz kimi xəstəliklərdən qorumaq üçün onların çantalarını yüngülləşdirməli, eyni zamanda, onlara D vitamini və kalsiumla bağlı qidalar verməlidirlər"*

***Rafis Bağırov:** "D vitamini çatışmayan uşaqlarda bel fəqərəsində deformasiya yaranır"*

**Orta məktəb şagirdlərinin çoxunda onurğa əyriliyi, skolioz kimi arzuolunmaz xəstəliklər yaranmağa başlayıb. Son dövrlər həm ibtidai, həm də yuxarı sinif şagirdlərində bu xəstəlik açıq şəkildə özünü göstərir. Valideynlərin əksəriyyəti uşaqlarında yaranan bu problemə elə də ciddi yanşmaq istəmir, nəticədə isə bu xəstəlik genişlənməyə, daha da dərindən kök salmağa başlayır.**

Millət vəkili Qənirə Paşayeva da Milli Məclisin Səhiyyə komitəsinin iclasında bu məsələnin həddən artıq ciddi olduğuna diqqəti çəkib. O bildirib ki, məktəblərdə şagirdlər arasında skolioz və kifoz xəstəliklərinin sayı artmağa başlayıb. Q.Paşayevanın sözlərinə görə, bu xəstəliklərin əməliyyatlarının qiymətləri da çox bahadır və müalicə üçün çox zaman əməliyyatların həyata keçirilməsi zərurəti yaranır. Millət vəkili, həmçinin, deyib ki, anemiyadan əziyyət çəkən insanların sayının artması insanların sağlamlığı üçün təhdiddir. Buna görə də bu məsələnin həllinə nail olmaq lazımdır.

Ekspertlər bildirirlər ki, skolioz xəstəliyinin yaranmasının əsas səbəbi uşaqlarımızın daşıdığı ağır məktəbli çantalarıdır. Onların təhlillərinə görə, hər 10 uşağın 1-də skolioz və ya onurğa əyriliyi təhlükəsi üzə çıxır. Ağır çantalar kürək, bel, ayaq və baş ağrısı, o cümlədən, yuxusuzluğa səbəb ola bilər. Məktəbə piyada gedən, ağır çantaları uzun müddət daşımaq məcburiyyətində qalan uşaqlarda boyun, kürək, bel və ayaq ağrılarının yanında gərginlik tipi baş ağrıları və yuxu nizamında pozulmalar müşahidə edilir. Qeyd edilənə görə, heç bir ehtiyat tədbiri olmadıqda, müxtəlif xəstəliklər, xüsusilə də skolioz yaranır. Məktəb çantalarının ağır olması və təktərəfli daşınması, səhv oturma mövqeyi, əzələ skelet quruluşuna uyğun olmayan məşq hərəkətləri skoliozun əmələ gəlməsini tezləşdirir. Onurğa əyriliyi olan hər 4 uşaqdan biri müalicəyə ehtiyac duyarkən, müalicə ehtiyacı olan qız uşaqlarının oğlanlardan 8 qat daha çox olduğu müşahidə edilir.

Ekspertlərə görə, ayrıca uşağın əzələ-skelet quruluşuna uyğun idman fəaliyyətində olmaması, məktəbdəki masa və kürsülərin uşağın bədəninə uyğun olmaması və səhv mövqedə oturma skolioza gətirib çıxarır.



Həkim-terapevt Leyla Bayramlı bizimlə söhbətində bildirdi ki, skolioz xəstəliyinin üstünə vaxtında düşdükdə və müalicəsi qaydasında aparıldıqda ondan xilas olmaq mümkündür. Müsahibimiz hesab edir ki, erkən diaqnoz və müalicə ilə skoliozun qarşısını almaq üçün ilk növbədə məlumatlılığın artırılması lazımdır. Onun bildirdiyinə görə, ailələr uşaqların onurğa əyriliyini erkən fərq etmələri üçün uşaqlara nəzarət etməlidirlər. Həkim qeyd edir ki, sürətli böyümə çağına girən 10-12 yaşarası qız uşaqları və 13-14 yaşarası oğlan uşaqlarının ildə 2 dəfə onurğa müayinələri aparılmalıdır ki, onlarda belə bir problemin olub-olmadığı müəyyən edilsin. İnkişaf çağının başlanğıcında xüsusilə diş teli taxan, elastik bağ quruluşu olan, ayaq problemləri və yerimə çətinliyi çəkən kilolu uşaqlar skolioz mövzusunda risq qrupunda olduqları üçün daha tez müşahidə lazımdır. "Uşaqlarda skolioz xəstəliyinin yaranmasının əsas səbəbi onların ağır məktəbli çantaları daşıması ilə bağlıdır. Valideynlər çalışmalıdırlar ki, uşaqlarının ağır çantalarını özləri daşısın, yaxud onlara təkərli çantalar almalıdırlar ki, uşaq çətinlik çəkməsin. Bu gün skolioz xəstəliyi ilə bağlı şikayətlər çoxdur. Bu da bizi narahat edir. Valideynlər uşaqlarını skolioz, kifoz kimi xəstəliklərdən qorumaq üçün onların çantalarını yüngülləşdirməli, eyni zamanda, onlara D vitamini və kalsiumla bağlı qidalar verməlidirlər" - deyə mütəxəssis bildirdi.

Həkim-terapevt Rafis Bağırovun fikrincə isə uşaqlar arasında müşahidə olunan skolioz və kifoz xəstəliklərinin yaranmasının əsas səbəbi uşaqlarda D vitamini çatışmazlığı ilə bağlıdır. Onun sözlərinə görə, bu gün insanların hamısında xırda skolioz və kifoz ola bilir. "Bu xəstəliklərin yaranmasının əsas səbəbi odur ki, körpə vaxtlardan uşaqlara süd məhsulları kifayət qədər verilmir, bunun nəticəsində də bədəndə kalsiumun miqdarı çatışmır. Həmçinin, uşaqlar günəş altında lazımi miqdarda gəzmir, bədən örtülü vəziyyətdə olur və nəticədə dəridə D vitamininin sintezi azalır, bədəndə kalsium çatışmazlığı yaranır. Bu da sümükləri hələ kifayət qədər bərkiməmiş uşaqlarda müxtəlif deformasiyaların yaranmasına səbəb olur. Amma o ki, qaldı skolioz və kifoz xəstəliklərinin kəskin şəkildə artması məsələsinə, deyərdim ki, bu heç də belə deyil. Fəqərə sümüklərində gözlə görünməsi mümkün olmayan əyriliklər ola bilir, bu da orqanizmə hər hansı bir kliniki problem yaratmır. Bəziləri bunun adını "skolioz" qoyurlar. Əslində, Bakıda kimi yoxlasan, hamıda var. İnsanlar buna əhəmiyyət vermədən yaşayırlar. Bu kimi hallardan xilas olmaq çətindir. Uşağı körpəlikdən D vitamini ilə tam şəkildə təmin etmək çətin məsələdir. Yəni lap müxtəlif dərmanlar verib D vitamini yaratsan da, üstündən müəyyən müddət keçdikdən sonra onun azalma prosesi baş verəcək. Çünki bədəndə sintez olmur. Düzdür, çalışırlar ki, kalsiumlu qidalarla onu təmin etsinlər, lakin bu da kifayət etmir. Çünki dünya əhalisinin 70 faizində D vitamini çatışmazlığı var".

Ağır məktəbli çantalarının uşaqlarda bu kimi xəstəliyin yaranmasına səbəb olduğuna gəlincə, R.Bağırovun sözlərinə görə, uşaqların ağır çantalar götürməsi düzgün deyil. "Uşaq gün ərzində özünün götürə biləcəyindən qat-qat ağır çanta götürür. Təbii ki, onu əlində götürə bilmir və çalışır ki, onu bel fəqərəsinə istinad edib götürsün.

Təbii ki, D vitamini çatışmayan uşaqlarda bel fəqərəsində deformasiya yaranır və bu problemlər üzə çıxır. Ona görə də çantaların bu cür ağır olması uşaqlarda patologiya yaranmasına səbəb olacaq" - deyə bildirən R.Bağırov hesab edir ki, şagirdlərin bu cür xəstəlikdən xilas edilməsi üçün onlara D vitamini, eləcə də kalsium tərkibli qidalar verilməlidir.

***İradə SARIYEVA***

# 380 binanın dam örtüyünün təmiri Bakı sakinləri üçün nə deməkdir...

**Bakı şəhərində qışa hazırlıq tədbirləri çərçivəsində çoxmənzilli yaşayış binalarının dam örtüklərinin təmir olunması məqsədilə Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanıb. Sərəncama əsasən, Bakı şəhərində 380 çoxmənzilli binanın dam örtüyünün təmiri məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə 10 milyon manat ayrılıb.**

*"...həmin binalarda yaşayan sakinlərin yaşayış şəraitinin yaxşılaşmasına səbəb olacaq"*

Qeyd edək ki, paytaxt ərazisində olan çoxmənzilli binaların dam örtükləri lazımi səviyyədə deyil. Bu səbəbdən də bəzi ərazilərdə olan çoxmənzilli binaların sakinləri binaların dam örtüyünü təmir etmək üçün özləri pul yığaraq problemi həll edirdilər. Ancaq indi bu məsələ sakinlər tərəfindən deyil, dövlət tərəfindən həll olunacaq.

Daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, çoxmənzilli binaların dam örtüyünün təmiri ilə bağlı müəyyən problemlər yaşanır: "Sevindirici haldır ki, Prezident İlham Əliyev məlum problemi həll etmək üçün Bakı Şəhər İcra Hakimiyyətinə 10 milyon manat dəyərində vəsait ayırdı. Bu sərəncam sosialyönümlü sənəddir. Məlumdur ki, son zamanlar bütün fərman və sərəncamlar xalqın rifahının yaxşılaşmasına xidmət edir. Sərəncamın imzalanmasında məqsəd insanların yaşayış şəraitinin yaxşılaşmasıdır. Məlumat üçün bildirim ki, binalar özəlləşdirilən zaman dam örtüyünün təmir olunması kimi problemlər ortaya çıxırdı. Belə olan halda,

***Nüsrət İbrahimli:*** *"Çoxmənzilli binaların dam örtüyünün təmiri ilə bağlı müəyyən problemlər yaşanır"*



yaşayışçılar da binanın idarəetməyə götürülməsinə etiraz edirdilər.

Binanı idarəetməyə götürmək üçün yerli icra hakimiyyəti binanı tam təmir edib, yararlı vəziyyətə salıb vətəndaşların ixtiyarına verməlidir".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, uzun illərdir paytaxt ərazisində olan binaların əksəriyyətinin dam örtüyü təmir olunmayıb. Bu sərəncamdan sonra paytaxt ərazisində olan çoxmənzilli binaların dam örtüyü təmir olunacaq.**

***Günel CƏLİLOVA***

# Lerikin Hamarat kənd sakinləri şəraitsizlik üzündən qış mövsümünə ölüm kabusu kimi baxmağa başlayıb...

**Dövlət başçısının gördüyü işlər, apardığı daxili və xarici siyasət hər bir Azərbaycan vətəndaşın ürəyindən xəbər verir. Demək olar ki, ölkədə həyata keçirilən layihələr insan amilinə xidmət edir, əhalinin vəziyyəti durmadan yaxşılığa doğru dəyişir.**

Lakin Lerikin tamahkar məmurların ucbatından dağlar diyarında əhalinin xeyrinə olan heç bir qərar, fərman icra edilmir, hətta məmurlar Prezidentə saxta məlumat verməkdən belə çəkinmirlər. Nəticədə indi Lerikin əksər dağ kəndlərində əhali yaşamır, necə deyərlər, həyatda qalmaq uğrunda çarpışır. Lap açıq desək, burada əlinə balaca imkan düşən şəxs vardövlət toplamaq üçün dövləti aldatmağı da bacarır. Ailədə problemi olan idarə rəhbəri hirsini sadə xaldan çıxarır. Səlahiyyət sahiblərinin başı özünə qarışdığına görə kəndlərdə olan acınacaqlı vəziyyətlə maraqlanan yoxdur.

Lerikdə Hamarat adında bir kənd var. Bəzi rayon səlahiyyətlilərinin xəyanəti üzündən bu yurd yerinin dərdi tükənmək əvəzinə hər keçən gün artır. Hamaratın çox hissəsi boşalıb. Yaşı ötmüş adamlardan savayı burada gənclər nadir hallarda gözə dəyir. Vəziyyətin ağırlığı ayağı yer tutanı kənddən perik salır.

Bəli, Hamaratda problemlər bir deyil, iki deyil. Bir neçəsini sadalamaq istəyirəm. Kəndin işıqları heç bir səbəb olmadan gündə 4-5 dəfə söndürülür. Marşrut avtobuslarının yoxluğu üzündən yaşlı adamlar 16 kilometrlik yolu gedib pensiya pullarını vaxtında bankomatdan götürə bilmirlər.

Ayrı-ayrı fırıldaqçılar tərəfindən burada vaxtı ötmüş köhnə ərzaqların üçqat baha qiymətə satılması adi haldır. Yağışlı günlərdə palçıq əlindən kəndin iç yollarında hərəkət çətinləşir. İş yerləri bir yana qalsın, pay torpaq sahibləri texnika olmadığı üçün sahələrdə vaxtında əkin-biçin apara bilmir. Hamarata təbii qazın verilməsi isə 10 ildən çoxdur yubadılır. Bu məsələnin gecikməsi artıq insanların həyatını təhlükə qarşısında qoyub. Meşədən yanacaq odunu gətirmək indi kənd adamı üçün qeyri-mümkündür. Meşə işçiləri isə rayonda hökm sürən hərc-mərclikdən istifadə edərək odunun qiymətini birə-beş qaldırıblar. Məhz buna görə də Hamaratın imkansız adamları indidən özünü qarşıdan gələn qışda ölümlə üz-üzə görür...




**Hamaratlıların hazırkı durumu belədir. Rayon səlahiyyətlilərinin problemlərə kömək göstərməsinə inam artıq tükənib. Daha doğrusu, camaat boğaza yığılıb. İndi bu uşaq kimi məsum, təmiz, dövlətinə bağlı adamların ümid yeri yalnız ölkə rəhbəridir.**

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**Yeni dəblər özü ilə həmişə söz-söhbətlər gətirir, bəzən isə şübhə doğuran məqamlar ortaya çıxarır. Bu gün Azərbaycanda müasir dünya dəbi ilə ayaqlaşmaq istəyən, əcnəbilər kimi geyinən qızlar kifayət qədərdir. Olsun. Amma son zamanlar qızlarımız dəb məsələsində həddindən artıq irəli getməyə, cəmiyyətdə birmənalı qarşılanmayan tərzləri qəbul etməyə başlayıblar.**

# Gənc qızların Bakıda yayılan daha bir pis adəti - ayaqlara muncuq, zəncir bağlayırlar... Çox pis izahlar verilir...

***Ənvər Çingizoğlu:** "Qədim zamanlarda, orta əsrlərdə bu bir bəzək əşyası mahiyyəti daşıyırdısa, bu gün tamam başqa mahiyyət daşıyır"*

Ümumiyyətlə, daşqaş, qızıl-zinət əşyaları, bir sözlə, qadın gözəlliyini tamamlayan aksesuarlar qadın, qız üçün vacibdir. Lakin bəzən görürsən ki, bu bəzək vasitələrindən aidiyyəti üzrə istifadə edilmir. Bir vaxtlar qızlar arasında dodağına, burnunun qıraqlarına xırda qaşlar düzdürmək, qulaqları boyu sırğalar taxmaq geniş yayılmışdısa, son dövrlər qızlarımız daha çox ayaqlarına sep, bilərzik taxmaqla diqqəti cəlb edirlər. Gənc qızları müşahidə edərkən şahidi olduğumuz budur ki, 10 qızdan 7-8-i qollarına deyil, məhz ayaqlarına bilərziklər, qızıl və gümüş zəncirlər taxırlar. Bəziləri topuğuna taxmaqla kifayətlənməyərək ayaqlarının üstünü və barmaqlarını da xüsusi zəncirlər, muncuqlarla susləyirlər.

Onu da bildirək ki, bilərzik taxmaq vaxtilə dəb idi və bilərzik taxmaq əldə etdiyi nailiyyətlərlə kifayətlənməyən insanların seçimidir. Bu zinət əşyasının sahibi aktiv, dinamik və enerjili insanlardır. Xüsusilə çoxlu qolbaq taxanlar diqqət cəlb etməyi sevirlər. Başına gələnlər onlara heç vaxt dərs olmur. Məsələn, bir eşq hekayəti bitməmiş, başqasına başlayırlar… Qolbaqlar müdafiə olunmaq bacarığı, eləcə də öz fikirlərini başqalarına sırımaq qabiliyyətindən xəbər verir. Bu, qol bilərziyinə yanaşmadır. Bəs ayaq bilərziklərinə, zəncir və muncuqlarına yanaşma necə olmalıdır?

Etnoqrafların verdiyi məlumata görə, qadınlar arasında ayağa sep, bilərzik, muncuqlar, digər aksesuarlar bağlamaq qədim adətdir. Lakin bunu cəmiyyətdə normal statusa malik olanlar deyil, saray rəqqasələri, cəngiləri, eləcə də cariyələri taxırmış. Ayağa bağlanan aksesuara xalxal deyirmişlər. Bu gün də qızlar arasında geniş yayılan bu məsələnin tamam başqa niyyətlərdən qaynaqlandığını deyən etnoqraflar hesab edirlər ki, qızların sağ və sol ayaqlarına taxdıqları bilərzik, zəncir və muncuqların hər birinin öz mənası, gizli kodu var. Etnoqrafların sözlərinə görə, müasir qızların əksəriyyəti sağ, müəyyən bir hissəsi isə sol ayaqlarına bilərzik, zəncir, muncuq və pulcuqlar taxırlar. Onu da qeyd edək ki, bəzi araşdırmalara görə, sol ayağına bilərzik, zəncir taxanlar cinsi azlıqların təmsilçiləri sayılırlar. Yəni onlar lesbiyanlardır. Bunun lesbiyanlığın xüsusi işarələrindən biri olduğunu deyən ekspertlər hesab edirlər ki, qızların bəlkə də çoxu bunun mənasını bilmir və ona görə onu sol ayaqlarına taxırlar. Bu gün dünyanın bir sıra ölkələrində ayağa müxtəlif aksesuarların taxıldığını deyən ekspertlərin sözlərinə görə, bu dəbi yayan xüsusi qüvvələr var.

Hətta şəriətdə də qadınların xalxal taxmasına münasibət elə də xoş deyil. Məsələn, müqəddəs hədislərdə buyrulur ki, ey möminlər, ayağına xalxal taxmış qadınlar gizlətdikləri zinətlərin bilinməsi üçün ayaqlarını yerə (bərk) vurmasınlar.

Etnoqraf Ənvər Çingizoğlu bizimlə söhbətində bildirdi ki, boyun, qulaq, qollar və barmaqlardan başqa, ayaqlar üçün də bəzək əşyalarının mövcud olması realdır. O qeyd etdi ki, ayaqlar üçün nəzərdə tutulmuş bəzək əşyaları - zəncirlər topuğun yuxarı hissəsinə bağlanır və ona xalxal deyilir. Onun sözlərinə görə, enik mədəniyyətlərin moda dünyasında əks olunması ilə bir çox detal trend olmağa başladı və keçən əsrin 70-ci illərinin hədiyyəsi bohem tərzinin sevilən detallarından biri xalxal olub.

O vurğuladı ki, qızlar, qadınlar çox zaman ayaqlarına taxdıqları xalxalın hansı məna daşıdığını bilmirlər. "Bu gün gənc qız və qadınlar ayaqlarına müxtəlif aksesuarlar taxırlar. Bəziləri sağ, bəziləri isə sol ayağını guya gözəl göstərmək, başlıcası isə dəblə ayaqlaşmaq naminə bunu etdiklərini deyirlər. Lakin araşdırmalar tamam başqa fikirlər söyləməyə əsas verir. Məsələn, qədim zamanlarda, orta əsrlərdə bu bir bəzək əşyası mahiyyəti daşıyırdısa, bu gün tamam başqa mahiyyət daşıyır. Dünya dəbini idarə edənlərin xeyli bir qisminin qeyri-ənənəvi oriyentasiyaya mənsub olması bizi başqa məsələ ətrafında düşünməyə məcbur edir. Bu gün dəb adı altında bir sıra yad elementlərin cəmiyyətimizə daxil olmasının şahidi oluruq. Bunlardan biri də ayağa sep, bilərzik və s. bağlanmasıdır. Hansı qıza baxırsan, ayağında bilərzik görürsən. Bu da yaxşı təsir bağışlamır. Hesab edirəm ki, qızların ayaqlarına kütləvi olaraq zəncir, bilərzik taxması normal hal deyil, bilərzik qola, sep boyuna yaraşır.



*"Hesab edirəm ki, qızların ayaqlarına kütləvi olaraq zəncir, bilərzik taxması normal hal deyil"*

Bu kimi "dəb"lərin cəmiyyətlərə ixracı işbazların əlavə gəlir mənbəyinə çevrilir, nəticədə isə gənclərimiz onlara yad olan təsirlərə düşürlər. Qızların ayağa zəncir bağlamasının xüsusi kodu var. Bildiyim qədər, sol ayağına zəncir bağlayanlar oriyentasiyası normal olmayanlardır, sağ ayağa isə əsasən dəb xatirinə zəncir, bilərzik bağlanır.

Qızlar hansı ki, bunun mənasını bilir, dərhal zənciri sol ayağından sağ ayağına keçirir, hansı isə bilmir, elə sol ayağında saxlayır. Ola bilsin, sol ayağına zəncir, bilərzik taxan qızların çoxu bunun mənasını bilmir" - deyə ekspert bildirdi.

***Leyla QARAXANLI***

№ 167 (4065) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

20 SENTYABR 2019-cu il

# 7 yaşlı oğlan çayda gizli xəzinə tapdı



**Şotlandiyanın Şimali Lanarkşir əyalətinin Bonkl kəndindən olan 7 yaşlı Kempbel But (Campbell Booth) çayda gəzərkən gizli xəzinə aşkar edib.**

"Ölkə.az" bildirir ki, bu barədə məlumatı "Daily Mirror" qəzeti yayıb. Qəzetin yazdığına görə, Kempbel atası Qrem (Graeme) və itlə çay kənarında gəzərkən Kalder çayının sahilə yaxın hissəsində sarı parıldayan əşya görüb. 7 yaşlı oğlan gördüyü sarı əşyanın şokolad moneti olduğunu düşünərək onu sudan götürmək qərarına gəlib. "Götürüb diqqətlə baxdıqda başa düşdüm ki, bu metaldır. Biz oradan qızıl və gümüşdən olan boyunbağı tapdıq", - Kempbel qeyd edib. 7 yaşlı oğlan tapdıqları xəzinənin dəyərini bilməsə də, əşyaların çox ağır olduğunu deyib. Kempbelin atası Qrem isə bildirib ki, onlar xəzinəni polisə təslim etmək qərarına gəliblər. "Düşündük ki, bu, kiminsə nənəsinin bəzək əşyaları ola bilər və polisə təqdim edib, qanuni yolla sahibinə qaytarmaq istədik". Polis isə tapılan əşyaların əvvəllər hər hansı cinayət əməli ilə bağlı olub-olmadığını araşdırır.





**Qoç** - Günün ilk yarısından qətiyyətli və iradəli şəkildə çalışın. Hadisələrin dünənki məcrasının davam etdirilməsi fəaliyyətin ideal variantı ola bilər. Yaradıcılıq planlarını reallaşdıra bilərsiniz.



**Buğa** - Yaşam tərzi sizdən aktiv qərarlar və mütəhərrik olmağı tələb edir. Başqalarının laqeydliyindən yararlanmayın, öz stilinizə sadiq qalın. Əhval-ruhiyyənizi ən kiçik, xırda məsələlərə görə korlamayın.



**Əkizlər** - Günün ilk yarısında yaxşı əhvalınız olacaq. Hadisələrə nikbin yanaşın. Ruh düşkünlüyünə qapılmayın. Situasiya pozitivdir. Yeni, maraqlı imkanlar yaranır. Şanslarınızdan yararlanın.



**Xərçəng** - Günün ilk yarısından etibarən tənbəllik etməyin. Analitika, mürəkkəb hesablamalar, sistemləşdirmə, fərdi nəzarət, məsuliyyətli sifarişin yerinə yetirilməsi üçün münasib zaman deyil.



**Şir** - Günün ilk yarısından etibarən rəqiblərlə müqayisədə üstün mövqelərə malik olacaqsınız. Amma bu, situasiyanı tam nəzarətdə saxlamaq istəklərinizə və cəhdlərinizə mane olmamalıdır.



**Qız** - Yeni oriyentirlər seçin. İşlə bağlı təklif səslənəcək. Yeni və fərqli ideyalar var. Gərəkli informasiya axtarışı ilə məşğul olun, faydalı əlaqələri bərpa edin. Təmaslardakı donuq situasiyanı aradan qaldırın.



**Tərəzi** - Məntiq, tələbat və ya seçdiyiniz plana uyğun davranın. Hisslər, emosiyalar və ya ani impulsun təsiri altına düşməyin. Təkbaşına çalışmayın, tənha qalmayın. İşdə həmkarlarınızla birlikdə olun.



**Əqrəb** - Ambisiyaların reallaşdırılması üçün müvafiq zamandır. Məqsədə çatmaq üçün effektiv vasitələrdən istifadə edin. Hədəfə daha tez çatmaq üçün ən əlverişli metoddan yararlanaraq rəqibləri qabaqlayın.



**Oxatan** - Günün ilk yarısı uğurludur. Enerjili olun, işlərə aktiv başlayın. Cari problemləri hadisələrə təsir imkanlarına malik insanın yardımı ilə həll edin. Bilik və bacarıqlarınızdan yararlanın.



**Oğlaq** - Günün ilk yarısı ağır fiziki əmək yox, yaradıcılıq üçün daha əlverişlidir. Özünüzə həddən ziyadə güvənsəniz, ciddi səhvlərə yol verə bilərsiniz. Vədlərə, təkliflərə, dilətutmalara aldanaraq yolunuzdan sapmayın.



**Dolça** - Qeyri-konstruktiv hisslərə qapılmayın. Yaxın ətrafınızdakı insanların maraqlarına zidd addım atmaq niyyətiniz varsa, yaxşıca düşünün. Maddi məsələlər münasibətlərdə sərinləşmə və fikir ayrılıqlarına səbəb ola bilər.



**Balıqlar** - Hadisələrin zahiri effektləri bu gün həlledici rol oynayacaq. Olaylara, təkana ehtiyac duyulmursa, hiperaktivlik yalnız zərər verə bilər. Başqalarının oyunlarına qatılmayın, məkrli planın qurbanına çevrilməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Elan

Şəki rayonu, Qayabaşı kənd sakini Mehtiyev Qərib Hüseyn oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 225 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Öyrət kənd sakini Məmmədov Məmmədəli Qədir oğlunun adına verilmiş 404013066818 saylı reyestrdən çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, İnçə kənd sakini Fərəcov Şəfayət Bəxtiyar oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 214 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Heydərli Səbuhi Adil oğluna Azərbaycan İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Şahpələngova Aynur Məhərrəm qızına məxsus, Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti, ev 4 A, mənzil 5 ünvanına verilmiş çıxarış (və texniki pasport) itdiyi üçün etibarsız sayılır.

Rəhmanova Nərmin Rəfael qızının adına, Bakı şəhəri, Nəsimi rayonu, H.Sarabski küçəsi 16 B, mənzil 36 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Rəsulova (Orduxanlı) Zümrüd Anar qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həsənova (Məmmədova) Rəfiqə Gündüz qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədov Fərid Şamil oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qocayev Vadim Alik oğluna məxsus şəxsiyyət vəsiqəsi, hərbi hissəyə buraxılış vərəqəsi itdiyi üçün etibarsız sayılır.

Əzizov Rasim Vahid oğluna Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Genetik sınaqların idmana təsirləri

**Alimlər ilk dəfə insan genomunun xəritəsini yaradarkən, hansı genetik amillərin idmanda müvəffəqiyyətə çatmaqda rol oynadığı maraq yaratmışdır. "Deyerler.org" bildirir ki, yayılmış genetik sınaqlar, idmanda əldə edilmiş müvəffəqiyyətləri pis tərəfə inkişaf etdirə bilər.**

Ötən il Çinin Elm və Texnologiya Nazirliyi 2022-ci ildə Qış Olimpiya oyunları ərəfəsində ölkədə idmançıların genetik sınaqların, keçiriləcəyini elan etmişdir. Dünyada genetik sınaqların qiymətləri düşdükcə bu texnologiyanın ticarətinə maraq artır. Təkliflərin sayı, dezinformasiya riski ilə birgə artır və burada sınaqların nəticələrini şərh etmək, DNT-ni təhlil etməkdən çətindir. Gələcəkdə idmançılar məlumatların səhv açıqlanması baxımından təhlükədə ola bilər. Adətən, idman uğurları iki gen ilə əlaqələndirilir. Bunlar "ACE II" dözümlülük geni və "ACTN3 RR" partlayıcı qüvvə genidir.

Bununla belə, bu genlərin idman nailiyyətləri ilə əlaqəli olduğuna dair güclü sübutlar olmasına baxmayaraq, bu markerlər əsasında uğur hələ tam olaraq əldə edilməmişdir. Məsələ bundadır ki, idman intizamı güc və dözümlülüklə məhdudlaşmayaraq, bir sıra keyfiyyət və bacarıqlar tələb edir. İdmançının uğura çatmasına fiziki və psixoloji bacarıqlar kimi bir sıra amillər təsir edir. 2015-ci ildə Avstraliya alimləri, mövcud genetik sınaqlar nəticəsində idman potensialinin aşkar edilməsini öyrənərək sənəd hazırlamışdır. Sənəddə genetik sınaqların hər hansı bir uşağın və ya gənc idmançının istedadlarını müəyyən etmək və ya məşq planlarına dəyişiklik etmək üçün əsas ola bilməməsi qeyd edilmişdir. Belə bir təəssürat yaranır ki, getdikcə daha çox ölkə bundan istifadə etmək niyyətindədir. Bunun inkişaf etməsi genetik dopinqin əmələ gəlməsinə və Olimpiya idman növünün sonunun başlanğıcına səbəb ola bilər

## "Nar" abunəçilərinin nəzərinə!

**01.10.2019-cu il tarixindən etibarən "Nar"ın korporativ internet paketlərində dəyişikliklər olacaq.**

Daha ətraflı məlumatı www.nar.az səhifəsindən əldə etmək olar.

30.09.2019-cu il tarixindən etibarən "Nar"ın limitsiz internet paketlərində dəyişiklik olacaq. Daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

## Hindistanda "buynuzlu" şəxsi əməliyyat etdilər



**Hindistanda qeyri-adi cərrahiyyə əməliyyatı edilib.** "Trend" xəbər verir ki, Madxya-Pradeş ştatının Saqar şəhərində pasiyentin başından çıxmış buynuz kəsilib. "Şeytan buynuzu" adlandırılan bu törəmənin 10 santimetrdən böyük olduğu qeyd edilir. Həmin şəxsin sözlərinə görə, öncə şiş o qədər də böyük olmayıb, daha sonra, böyüyərək ona narahatlıq yaradıb. Buna görə də o, həkimə müraciət edərək "buynuz"dan xilas olmağa qərar verib. Həkimlərin dediyinə görə, əməliyyat uğurlu keçib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.